Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 aprel
2025-ci il,
çərşənbə axşamı
№ 066 (6894)
Qiyməti
60 qəpik




# Yeni dünya nizamının mərkəzində

## Azərbaycanın yaratdığı reallıqların izi ilə...

Bax səh. 2

## Beynəlxalq ictimaiyyətə çağırış

Bax səh. 3

## Gəlirlər artıb, xərclər tam təmin edilib

2025-ci ilin ötən 3 ayı ərzində Azərbaycan iqtisadiyyatındakı artım dinamikası ölkədə fiskal yığımların da böyüməsinə səbəb olub. Birinci rübdə dövlət büdcəsinin gəlirləri 9,7 milyard manatı ötüb ki, bu da proqnozdan 171,3 milyon manat (1,8 faiz) çoxdur. İlk 3 ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 5,4 faiz və ya 499,2 milyon manat çox gəlirlərin yığımı icra edilib. Bu, cari ilin dövlət büdcəsinin illik gəlirlərinin 25,4 faizi deməkdir.

Büdcə gəlirlərinin 4,3 milyard manatı və ya 45 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 3,6, milyard manatı və ya 37,2 faizi Dövlət Neft Fondundan transfertin, 1,4 milyard manatı və ya 14,7 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, digər yığımlar isə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən və dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşür. Fiskal yığımların strukturunda vergi orqanları büdcəyə 98,9 milyon manat və ya 2,3 faiz, əmlak xidməti 1,2 milyon manat və ya 13 faiz çox vəsait ödəyib.

**Gəlirlər xərcləri üstələyib**

Yeri gəlmişkən, dövlət büdcəsinin qeyri neft-qaz sektoru üzrə daxilolmaları 2025-ci ilin yanvar-mart ayları üzrə dövlət büdcəsinin ümumi daxilolmalarının 50,9 faizini təşkil etməklə təxminən 5 milyard manat təşkil edib. Bu, proqnozla müqayisədə 164,6 milyon manat və ya 3,4 faiz, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 285,8 milyon manat və ya 6,1 faiz çoxdur.

Büdcənin gəlirlər hissəsi üzrə daxilolmalarda qeydə alınan artımlar büdcə xərclərinin tam şəkildə icrasının da təmin edilməsinə mühüm təsir göstərib. Belə ki, 2025-ci ilin 1-ci rübündə dövlət büdcəsinin xərcləri 8 milyard 115 milyon manat məbləğində icra edilməklə illik dövlət büdcəsi xərclərinin 19,6 faizinə bərabər olub.

Dövlət büdcəsinin...

Bax səh. 3



Bax səh. 3

## Uzaq Vyetnamda...

## Müasirləşmə və milli dəyərlərin harmoniyası!

Bax səh. 5

## Ermənistan referendum keçirəcəkmi?

Bax səh. 5

## Rusiya "Talibanı" "siyahı"dan çıxardı...

Bax səh. 6

## Viran vücuddan qaçış

Bax səh. 7

## Azərbaycan-İraq arasında siyasi məsləhətləşmələr...

Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursu balanslı xarakter daşıyır. Respublikamız region və Avropa İttifaqı məkanına daxil olan ölkələrlə əlaqələri dərinləşdirməklə yanaşı, geniş İslam coğrafiyasında həmrəyliyin möhkəmlənməsində də mühüm rol oynayır. Bu da Azərbaycan dövlətinin xalqımızın bağlı olduğu milli-mənəvi dəyərlərə böyük önəm verməsinin təsdiqidir. Bu baxımdan, ölkəmizlə İraq arasında da geniş əlaqələr mövcuddur.

Azərbaycanla İraq arasındakı münasibətlərin qədim kökləri var. Tarixən bizi birləşdirən dini, mədəni əlaqələrimiz olub. Yaxşı haldır ki, hazırda həm Azərbaycan, həm də İraq tarixi zəmin üzərində qarşılıqlı münasibətlərin genişləndirilməsinə böyük maraq göstərirlər. İraq 2 yanvar 1992-ci il tarixində Azərbaycanın müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 30-da qurulub. 1992-ci ildə İraqın Bakıdakı diplomatik nümayəndəliyi baş konsulluq səviyyəsindən səfirlik statusuna qaldırılıb. 2016-cı ilin oktyabr ayında isə Bağdad şəhərində Azərbaycanın səfirliyi fəaliyyətə başlayıb. Azərbaycanla İraq arasında əməkdaşlıq perspektivləri kifayət qədər genişdir. Tərəflər bir çox fəaliyyət sahələrində, o cümlədən infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda, İraqa investisiyalar, eləcə də turizm, təhsil və digər sahələrlə bağlı əməkdaşlığı genişləndirə bilər.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İraqa səfər edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, səfər çərçivəsində Bağdad şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, İraq tərəfindən isə xarici işlər nazirinin ikitərəfli əlaqələr üzrə müavini Məhəmməd Hüseyn Bahr Al-Ulum rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, ticarət, enerji, humanitar və parlamentlərarası əlaqələrin...

Bax səh. 4



## Yelisey Sarayı "xarici müdaxilə" izi axtarışında

Bax səh. 6



## Həlledici həftə...

Bax səh. 6

Bax səh. 7

# Yeni dünya nizamının mərkəzində

## Azərbaycanın yaratdığı reallıqların izi ilə...

**XXI əsrin ikinci onilliyinin sonlarında dünyada, xüsusilə Avrasiyada yeni nizamın işartıları görünməyə başladı. Qərb artıq dolayısı ilə deyil, birbaşa bu kontingentlə bağlı həm hədəflərini, həm də planlarını irəli sürürdü. Bunu bəzən "dünya liderliyi uğrunda mübarizə" adlandırsalar da, faktiki baş verənlər yeni nizamı diktə edirdi. Siyasi texnoloqların siyasi-iqtisadi tranformasiyaların dəyişkənliyi ilə bağlı tezislərindən biri və bəlkə də ən əsası siyasi-iqtisadi-hərbi nizamın da canlı orqanizm funksionallığına tabeçiliyi üzərində qurulmasından ibarətdir- başqa sözlə, onlar iddia edirlər ki, siyasi-iqtisadi-hərbi kontrastlıq qrafik inkşaf yoluna malikdir. Yəni dünya nizamı doğulur (yaranır), böyüyür (oturuşur), yaşlanır (pozulur) və məhv olur (yenilənir). İkinci növ kontrastlığın canlı inkişaf perspektivindən fərqi sonda ölməməsidir - nizam prosesi mütləq şəkildə "refreş" olunur, yenilənir.**

**Bu mənada, artıq 30 illik "həyat yoluna" malik postsovet nizamı da özünün bəzi "büdrəmələri" ilə seçilirdi. Xüsusilə, klassik Qərb-Şərq "iqtisadi nərdivanı"nda yerlər və rollar dəyişməyə başlamışdı. "Soyuq müharibə" nizamı və sonrakı dövrdə adət etdiyimiz Qərb iqtisadi üstünlüyü göz görə-görə enişə doğru "yol almışdı". Əksinə, Şərq kontingentinə olan ehtiyac isə günü-gündən böyüyürdü. Beləliklə...**

# Müqəddəs Roma Kilsəsinin Kamerlenqosu Kardinal Kevin Farrell Həzrətlərinə

Zati-həzrətləri.

Müqəddəs Taxt-Tacın başçısı, zəmanəmizin görkəmli din xadimi Roma Papası Zati-müqəddəsləri Fransisk Həzrətlərinin vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq.

Roma Papası Fransiskin simasında beynəlxalq birlik və dünya katolikləri həyat amalı bəşəriyyətin əmin-amanlığı naminə fədakarcasına xidmət olan parlaq din xadimini, yüksək mənəvi keyfiyyətlərə malik böyük şəxsiyyəti itirdi.

Roma Papası Fransisk bütün həyat və fəaliyyətini ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, dinlərarası və mədəniyyətlərarası anlaşmanın və humanizm ideallarının təşviqinə həsr etmiş, insanlar arasında qarşılıqlı anlaşma, birlik və həmrəylik münasibətlərinin bərqərar olması naminə yorulmadan çalışmışdı. Dərin məzmunlu və şərəfli ömür yolu ilə örnək olan Roma Papası Fransisk bəşəri dəyərlərin fövqündə duran nəcib əməlləri, insanlara mərhəmət, şəfqət və mənəvi ucalığa çağırışları, xeyirxahlığı və fədakarlığı ilə bütün dünyada böyük rəğbət, dərin hörmət və ehtiram qazanmışdır.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində Zati-müqəddəsləri Fransisk Həzrətlərinin misilsiz xidmətləri olmuşdur. Onunla görüşlərimi, səmimi ünsiyyətimizi həmişə ən xoş təəssüratlarla xatırlayacağam. Roma Papası Fransiskin əziz xatirəsi və zəngin mənəvi irsi qəlblərdə və hafizələrdə daim yaşayacaqdır.

Bu ağır itkinin kədərini bölüşür, Sizə, Müqəddəs Taxt-Taca və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 aprel 2025-ci il*

## Yeni qaydalar, yeni sistem - Diqqət MƏRKƏZƏ!!!

Növbəti siyasi-iqtisadi nizama doğru istiqamətlənən proses özünün yeni atributları ilə seçilməli idi:

- Yeni nizamda "yol" predmeti (logistika) ön plana çıxır;
- Keçid məntəqələri (logistik stansiyalar) özünün təhlükəsizlik immunitetini formalaşdırmalı idi;
- Qlobal iqtisadi coğrafiyaların təbii yerdəyişməsi baş verəcəkdi;
- Klassik "müttəfiqlik" anlayışı yeni "tərəfdaşlıq" termini ilə əvəzlənirdi.

Və bütünlüklə proses diqqətlə izlənirdi. Yeni nizamın əsas ünsürü kimi çıxış edən "YOL" üçün stasionar hazırlıq başlamışdı. Hətta Avrasiyanın bəzi iqtisadi-siyasi aktorlarının gizli şəkildə yürütdükləri siyasi planlaşdırmalar yavaş-yavaş hədəfə tərəf irəliləyirdi. Yeni nizamın "yolu"nun keçid logistikası üzrə müzakirələr və araşdırmalar davam edən vaxtı, beynəlxalq aləm yeni bir reallıqla üz-üzə qaldı. 2020-ci il Vətən müharibəsi, ardından isə 2023-cü il antiterror tədbirləri yeni nizamın formalaşma mərkəzini "nişan" verdi.

Bəli, yeni nizamda ən əsas amillərdən biri tərəflərin maraqlarının nəzərə alınmasıdır - etiraf edilməlidir ki, ötən hər gün mürəkkəbləşən, qütbləşmənin açıq xarakter aldığı və kataklizmələrlə dolu dünyada bunu təmin etmək çox çətindir. Xüsusilə, qrup maraqlarının önə çıxdığı son illərdə beynəlxalq münasibətlər sistemində uğurlu təşkilatçılıq etmək mümkünsüz hala çevrilib - bəzi hallarda iqtisadi baxışlar, bəzən siyasi situasiya, bəzən təhlükəsizlik amili, bəzən isə ikitərəfli münasibətlərdə ortaya çıxan ziddiyyətlər maraqların kəsişməsinə, üst-üstə düşməsinə imkan vermir. Beləliklə, qütbləşmə və ya daha konkretləşdirsək, fikir ayrılığı bütün sferalar üzrə kəskin hal alır. Belə bir mənzərədə qlobal oyunçuya çevrilmək perspektivi isə get-gedə azalır - əksinə, fərqli coğrafiyalarda yerləşən ölkələr özlərinin lokal maraq müstəvisini formalaşdırır. Yaranan reallıqlar isə nəticə etibarı ilə belə bir fon yaradır - hər bir ölkə və ya təşkilat məhdud çevrəsi üzrə ələqələr sistemi qurmalıdır. Azərbaycan isə bu stereotipləri darmadağın edərək yeni nizamın oyun qaydalarını yaradan güc mərkəzlərinin diqqətini yeni geostrateji və geoiqtisadi coğrafiyada fokuslaşdırdı...



## İnkişaf üçün barış - yeni nizamın əsas formulu...

Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ümumən bölgənin siyasi-iqtisadi nüfuzunun və qiymətinin gündən-günə artmasında əsaslı şərt kimi çıxışını daha da ön plana çıxardı. Xüsusilə, bölgədə yaradılan "əməkdaşlıq zəncirləri", Şərq-Qərb, Şimal-Cənub prioritetləri üzrə tərəfdaşlığın yüksəldilməsi, yüksək geocoğrafi iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafiyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycan tərəfindən hazırlanmış tablonun "rənglərinə" çevrildi.

Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verəcəyi töhfələr uzaq perspektiv üçün yaradılmış trendlərdir. Şərq-Qərb sistematikası üzrə nümayiş etdirilən davranışlar isə indiyə qədər dünya tarixində görünməmiş hadisə belə sayıla bilər.

- Azərbaycan yeni nizamın qaydalarını beynəlxalq ticarət üzərində qurmağı bacardı - başqa sözlə, bu ticari zəncir yaxın yüz illərdə belə qırılma ehtimalı yarada bilməz. Milli - mənəvi bağlarla möhkəmləndirilən bu maraqların uzlaşdırılması prosesi həm iqtisadi, həm siyasi, həm də etnik təməllərlə "oturuşdurulur";
- Böyük iqtisadi güc mərkəzləri arasında "körpü"nü yaradaraq "təbii inkişaf" mexanizmi qurdu - ənənəvi aparıcı Qərb ilə bazar axtarışında olan "zəngin Şərq"i bir-birinə qovuşdurmaqla stasionar keçid regionlarının inkişaf səviyyəsinin artmını təmin etdi;
- Eyni parametrləri təhlükəsizlik meyarına da aid etmək olar - aparılan siyasət ən azı yaxın regional məsələlərdə "söz haqqı" formalaşdırır. Haşiyə çıxaraq bildirək ki, Azərbaycan - Türkiyə strateji müttəfiqliyi bunun real sübutudur. Məhz bu müttəfiqliyin ardından Yaxın şərqdə "dəngələr" yenidən qurulur. Artıq qarşı-qarşıya olan güclər də bəzi hallarda Azərbaycan amilini ön planda tutaraq yeni münasibətlər sistemi qurmaq üçün masa arxasına keçirlər.

Paralel olaraq sübut olunur ki, yaranan bu yeni situasiya xəyal edilən gələcək üçün bir başlanğıc sayıla bilər. Bu reallığın müəllifi olan Azərbaycan isə prosesi daha ön sıralara daşımaq üçün səfərbərdir...

## İnkişaf "sürətini" azaltmamaq üçün - "şirin ilğıma" aldanılmasın...

Prosesin ən diqqətçəkən məqamlarında biri də Azərbaycanın yeni nizamın mərkəzində bu kimi oyun qaydalarını bərabərhüquqlu əməkdaşlıq çərçivəsində yürütmək qabiliyyətidir. Beləliklə, ərazi baxımından kiçik olsa da, Azərbaycan formalaşan yeni iqtisadi-ticari proseslərə aktiv müdaxilə imkanı əldə edir - dost, qardaş, müttəfiq, tərəfdaş ölkələrə isə bu prosesdə aktiv iştirak imkanları tanıyır. Nəticə isə göz önündədir - bu gün ABŞ, Aİ, Türkiyə, ərəb-islam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Rusiya, Çin, hətta fərqli qitələrin təmsilçiləri Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq aləmlə əlaqələri və əməkdaşlıq coğrafiyası genişlənir. Çünki biz fərdi maraqlar üzərindən danışmırıq - prosesi daha dərindən və geniş şəkildə izah edirik - yaxın perspektiv üçün bəlkə də hansısa ölkələrə "şirin ilğım" kimi görünən predmetlər uğruna çox da uzaq olmayan yüksək inkişaf sürətini "azaltmağı" məsləhət də bilmirik...

Yuxarıda qeyd olunan "yol strategiyası" Azərbaycanın addım-addım nail olduğu bir dividenddir. "Çevrəçəkənin" mərkəzinin dayaq nöqtəsi kimi Zəngəzur dəhlizi götürüləcəyi təqdirdə bu çevrəyə daxil olan bütün yaxın-uzaq coğrafiyalar gələcək perspektivdə "mükafatını" alacaq. Çünki Azərbaycanın yaratdığı reallıqlar regional gələcəyin ticari doktrinasıdır. Azərbaycan ən əhəmiyyətli qovşaqlardan sayılan Orta Dəhlizin yeni istiqamətləri üzərində işləməklə prosesə yeni özəlliklər qazandırır. Qərbi Şərqə bağlayan, Mərkəzi Asiya ilə Kiçik Asiyanı qovuşduran, oradan isə Avropa məkanına inteqrasiyanın xəritəsini cızan Azərbaycan böyük bir anlamda ticari körpü "tikir". İstər enerji, istərsə də digər sahələrin inkişafı üçün əsas meyara çevrilmiş və Avropa ilə Çin arasındakı ən effektiv yolun ən mühüm stansiyası kimi oturuşmuş Azərbaycan qlobal həmrəyliyi və beynəlxalq əməkdaşlığı birləşdirməklə yanaşı, yeni layihələrin formalaşdırılması, təbliğini də önə sürür.

## Qətiyyətli Azərbaycan birləşdirici rolda...

Beləliklə, Azərbaycanın qlobal məkanın qətiyyəti, birlik və həmrəylik təşəbbüsləri ilə seçilən bir üzvü olaraq yeni beynəlxalq ələqələr sisteminin ənənəvi humanizm, qarşılıqlı hörmət, qardaşlıq və dostluq, ən əsası isə milli maraqların qorunması prisipləri əsasında yaratma prinsipallığı öz nəticəsini verir. Bu gün Türkiyə - Azərbaycan müttəfiqliyi özünün yeni kriteriyalarını ortaya qoyur. Azərbaycanın bölgə üçün yaratdığı "dostluq masası" böyük nəticələrə hesablanıb. Çünki potensial böyükdür. Ölkəmizin Şərq-Qərb formatlı dürüst, beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan siyasəti təqdir edilir.

*Pərviz SADAYOĞLU*

# Uzaq Vyetnamda...

# Heydər Əliyev Fondu xeyirxahlıq ənənələrini ölkə hüdudlarından kənarda da davam etdirir

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə davamlı töhfələr verir. Fond tərəfindən ayrı-ayrı ölkələrdə müxtəlif istiqamətləri əhatə edən çoxsaylı layihələr reallaşdırılır ki, bu da respublikamızın müsbət imicinin daha da möhkəmlənməsində mühüm rol oynayır. Bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində bir sıra görüşlər keçirib.

## Hanoyda əlamətdar görüş

Fondun vitse-prezidenti Leyla Əliyevanın Vyetnama səfərinin gündəliyi kifayət qədər geniş əhatə dairəsinə malikdir. Onun iştirakı ilə aprelin 21-də Hanoy Ticarət və Turizm Kollecində yaradıcı sənaye nümayəndələri və təhsil müəssisələrinin liderləri, eləcə də sovet dövründə Azərbaycanda təhsil almış vyetnamlı məzunlar ilə görüş xüsusilə əlamətdar olub.

Qeyd edək ki,1965-ci ildən fəaliyyət göstərən Hanoy Ticarət və Turizm Kolleci bu sahədə Vyetnamın ən böyük və nüfuzlu təhsil müəssisələrindən biridir. Təxminən 3000 tələbəsi olan kollecin müxtəlif akademik və peşə təhsilinin səviyyələri üzrə 50-dən çox təlim proqramı var.

Görüşdə tarixə qısa ekskurs edilib. Eyni zamanda, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında müxtəlif sahələrdə mövcud əlaqələr, iki xalq arasındakı möhkəm dostluq münasibətləri, bu əlaqələrin qurulmasında böyük siyasətçi Heydər Əliyevin müstəsna xidmətləri vurğulanıb.

İkitərəfli əlaqələr Azərbaycan müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilib. Xüsusilə də Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfəri ölkələrimiz arasında münasibətlərdə yeni səhifə açıb. Görüşdə mövcud əlaqələrin genişlənməsinə Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin öz töhfəsini verdiyi qeyd olunub. Fondun təhsil və sosial yönümlü layihələri Vyetnamı da əhatə edir. Bu istiqamətdə Vyetnamın Ha Giang əyalətində Heydər Əliyev Fondunun dəstəyi ilə ibtidai məktəbin inşa edildiyi minnətdarlıqla xatırladılıb.

Görüş zamanı ikitərəfli münasibətlər, Heydər Əliyevin iki ölkənin və xalqın dostluğu istiqamətindəki töhfələri, hazırda Azərbaycan-Vyetnam yüksəksəviyyəli əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Mövcud münasibətlərin daha da genişləndirilməsi, bu çərçivədə Heydər Əliyev Fondu tərəfindən təhsil və sosial sahələrdə həyata keçiriləcək layihələr müzakirə edilib.

Ticarət və Turizm Kollecində, həmçinin 1968-1990-cı illərdə Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil almış vyetnamlı məzunlarla görüş keçirilib. İki ölkə arasında dostluq münasibətlərinin formalaşmasında Azərbaycanda təhsil almış vyetnamlı məzunların xüsusi rol oynadıqları diqqətə çatdırılıb. Bildirilib ki, məhz Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfərindən sonra Azərbaycanda təhsil alan vyetnamlı tələbələrin sayı artıb. Sovet dönəmində Azərbaycanda 5 minədək vyetnamlı təhsil alıb.

Görüşdə Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatı təqdim edilib.

Daha sonra Dünya Barbekü Assosiasiyasının vitse-prezidenti, tanınmış aşpaz David İsrafilov tərəfindən Azərbaycan mətbəxinin nümunələrinin təqdimatı olub.









## Görmə qabiliyyəti məhdud şəxslər üçün məktəblə tanışlıq

Fondun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində Hanoyda Nguyen Dinh Chieu orta məktəbində olub. Məktəbdə keçirilmiş görüşdə Fondun ölkəmizdə görmə qabiliyyəti məhdud şəxslərin cəmiyyətə inteqrasiyası və inklüziv təhsil sahəsindəki layihələri barədə məlumat verilib. Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı arasında görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişinin imzalandığı, bu layihənin görmə qabiliyyəti məhdud insanların cəmiyyətə inteqrasiyasına, informasiya-kommunikasiya vasitələri ilə bilik, məlumat əldə etmək imkanlarının genişləndirilməsinə yönəldiyi qeyd edilib. Görmə qabiliyyəti məhdud uşaqlar üçün Heydər Əliyev Fondunun təşəbbüsü əsasında xüsusi internat məktəbinin nəzdində mətbəə yaradıldığı, burada Brayl əlifbası ilə dərslik və dərs vəsaitlərinin çap olunduğu bildirilib.

Leyla Əliyeva inklüziv təhsilə dəstək çərçivəsində Vyetnamdakı görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatını təqdim edib. Eyni zamanda, diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən məktəbə görmə qabiliyyəti məhdud uşaqların təhsilinə dəstək məqsədilə bir sıra avadanlıqlar hədiyyə olunacaq.

Qeyd edək ki, 1982-ci ildən fəaliyyət göstərən məktəb görmə qabiliyyəti məhdud uşaqlar üçün nəzərdə tutulub. 1988-ci ildən isə sözügedən məktəbdə görmə qabiliyyəti olan şəxslər də təhsil ala bilirlər. Məktəbdə hazırda 1800 şagird, o cümlədən 145 görmə qabiliyyəti məhdud şəxs təhsil alır.

Müəllim heyəti akademik fənlərin tədrisi ilə yanaşı, həm də inklüziv təhsil modelinin inkişafı ilə məşğul olur. Burada inklüziv təhsil üçün geniş sistem qurulub. Məktəbin missiyası bərabər keyfiyyətli təhsil imkanlarını təmin, müstəqilliyi və cəmiyyətə inteqrasiyanı təşviq etməkdir.

*Mübariz FEYİZLİ*

# Beynəlxalq ictimaiyyətə çağırış

## 437 tarixi abidə zədələnib, 68-i tamamilə dağıdılıb, 114-ü isə ciddi şəkildə zərər görüb

Ermənistanın 30 illik işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqına məxsus qədim tarixi, mədəni və dini abidələr dağıdılaraq yerlə-yeksan edilib, onların bir qismi isə saxtalaşdırılıb. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi xalqımızın minilliklər boyu yaşadığı torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək olub. Bütövlükdə, 200 il ərzində Azərbaycan xalqına qarşı davam etmiş erməni təcavüzünün qurbanları həm də tarixi-dini abidələr, müqəddəs ocaqlar və məbədlər olub. İşğal altında olmuş müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət nümunələri dağıdılmaqla yanaşı, həm də təhqir olunub. İşğaldan azad olunmuş ərazilərdəki məscidlərdə donuz, mal-qara saxlanılıb, eyni zamanda, Qafqaz Albaniyasına məxsus məbədlər erməniləşdirilərək qriqoryanlaşdırılıb. Bütün bunlar isə onu göstərir ki, Ermənistanın xalqımızın mədəni-tarixi, dini irsinin məhv edilməsinə yönəlmiş cinayət əməlləri bəşəriyyətə qarşı soyqırımıdır. Bu əməllərinə görə işğalçı Ermənistan beynəlxalq hüquq qarşısında cavab verməlidir və verəcək.

**Avropa Azərbaycan Mərkəzi bəyanat verib**

Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra ermənilərin törətdiyi bu cinayətləri əyani şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırır. Yeri gəlmişkən, qeyd edək ki, Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi 18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara və media qurumlarına ünvanlanan bəyanat yayıb. Bəyanatda beynəlxalq hüququn prinsiplərinin qorunmasının mədəni irsin müdafiəsində qlobal həmrəyliyin təşviqi baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd olunub, mədəni irsin qorunmasının yalnız mədəniyyət məsələsi deyil, eyni zamanda, beynəlxalq hüququn vacib elementi hesab edilməklə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində baş vermiş ciddi hüquq pozuntularının diqqət mərkəzində saxlanması tələb olunub. Bildirilib ki, Ermənistanın 30 illik işğal dövründə Azərbaycanın ərazilərində həyata keçirdiyi sistemli vandalizm təkcə siyasi işğal aktı deyil, həm də beynəlxalq hüququn mədəni irsin qorunmasına dair birmənalı qadağalarını kobud şəkildə pozan mədəni soyqırımıdır.

Bu baxımdan Xocalı rayonunun Pirilər kəndindəki yerləşən qədim alban məbədindən hərbi məqsədlərlə istifadə edilməsinin bu pozuntuların konkret və sənədləşdirilmiş sübutlarından biri olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qafqaz Albaniyasının maddi-mədəni irsinin ayrılmaz hissəsi kimi xüsusi qorunan bu abidəni Ermənistanın tamamilə dağıtması və ondan silah-sursat anbarı kimi istifadə etməsi Cenevrə Konvensiyasının və 1954-cü il Haaqa Konvensiyasının birbaşa pozulmasıdır.

**İşğal dövründə...**

Həmçinin bildirilib ki, işğal dövründə 437 tarixi abidə zədələnib, 68-i tamamilə dağıdılıb, 114-ü isə ciddi şəkildə zərər görüb. Dəymiş ümumi maddi ziyanın həcmi 700 milyon manatdan çoxdur. “Azərbaycan azad edilmiş ərazilərdə bu abidələrin bərpası və mühafizəsi istiqamətində beynəlxalq öhdəliklərinə uyğun şəkildə ciddi fəaliyyət göstərir. Beynəlxalq təşkilatları, xüsusilə UNESCO və ICOMOS-u bu məsələdə daha fəal və prinsipial mövqe sərgiləməyə çağırırıq. Mədəni irsin dağıdılmasına qarşı səssizlik beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi kimi qiymətləndirilməlidir. Mədəni irs müharibənin obyekti olmamalıdır, onun hərbiləşdirilməsi insanlığın birgə mirasına qarşı yönəlmiş ağır hüquq pozuntusudur”, - deyə bəyanatda vurğulanıb.

Onu da qeyd edək ki, Azərbaycan 30 il ərzində keçmiş işğal olunmuş ərazilərimizdə və Ermənistanda mədəni irsimizin qəsdən dağıdılması, mənimsənilməsi, dəyişdirilməsi, habelə qanunsuz başqa yerə aparılması ilə bağlı qiymətləndirmə missiyalarının reallaşdırılması çağırışları ilə beynəlxalq təşkilatlara israrla müraciət edib. Təəssüf ki, bu Ermənistan tərəfinin əngəlləri nəticəsində mümkün olmayıb. UNESCO-nun özü də 2005-ci il hesabatında bu faktı təsdiqləyib. Torpaqlarımız işğaldan azad olunduqdan sonra isə UNESCO erməni lobbisinin təsiri altında Ermənistan törətdiyi vandalizmi araşdırmaq üçün missiya göndərmir. Azərbaycana gəlincə, respublikamızın ərazisində yerləşən mədəni irs mənşəyindən, dünyəvi və ya dini mənsubiyyətindən asılı olmayaraq dövlətimiz bu irsə dəyər verir. Bu isə Azərbaycan xalqının mədəni müxtəlifliyini təcəssüm etdirir.

*Nardar BAYRAMLI*

# Gəlirlər artıb, xərclər tam təmin edilib

## Büdcədə qeyri-neft yığımları əsas yer tutur

2025-ci ilin ötən 3 ayı ərzində Azərbaycan iqtisadiyyatındakı artım dinamikası ölkədə fiskal yığımların da böyüməsinə səbəb olub. Birinci rübdə dövlət büdcəsinin gəlirləri 9,7 milyard manatı ötüb ki, bu da proqnozdan 171,3 milyon manat (1,8 faiz) çoxdur. İlk 3 ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 5,4 faiz və ya 499,2 milyon manat çox gəlirlərin yığımı icra edilib. Bu, cari ilin dövlət büdcəsinin illik gəlirlərinin 25,4 faizi deməkdir.




Büdcə gəlirlərinin 4,3 milyard manatı və ya 45 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 3,6, milyard manatı və ya 37,2 faizi Dövlət Neft Fondundan transfertin, 1,4 milyard manatı və ya 14,7 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, digər yığımlar isə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən və dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşür. Fiskal yığımların strukturunda vergi orqanları büdcəyə 98,9 milyon manat və ya 2,3 faiz, əmlak xidməti 1,2 milyon manat və ya 13 faiz çox vəsait ödəyib.

**Gəlirlər xərcləri üstələyib**

Yeri gəlmişkən, dövlət büdcəsinin qeyri neft-qaz sektoru üzrə daxilolmaları 2025-ci ilin yanvar-mart ayları üzrə dövlət büdcəsinin ümumi daxilolmalarının 50,9 faizini təşkil etməklə təxminən 5 milyard manat təşkil edib. Bu, proqnozla müqayisədə 164,6 milyon manat və ya 3,4 faiz, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 285,8 milyon manat və ya 6,1 faiz çoxdur.

Büdcənin gəlirlər hissəsi üzrə daxilolmalarda qeydə alınan artımlar büdcə xərclərinin tam şəkildə icrasının da təmin edilməsinə mühüm təsir göstərib. Belə ki, 2025-ci ilin 1-ci rübündə dövlət büdcəsinin xərcləri 8 milyard 115 milyon manat məbləğində icra edilməklə illik dövlət büdcəsi xərclərinin 19,6 faizinə bərabər olub.

Dövlət büdcəsinin vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsi üçün maliyyələşmələr, o cümlədən əməkhaqları, müavinətlər, pensiyalar, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, dövlət proqramları və məqsədli tədbirlərin, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi büdcə və büdcədən maliyyə yardımı və ya digər qaydada vəsait alan təşkilatların dövlət xəzinədarlıq orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında təmin edilib. Xərclərin 5 milyard 51 milyon manatı və ya 62,2 faizi cari xərclərə, 25,8 milyard manatı və ya 31,8 faizi əsaslı xərclərə 486,7 milyon manatı və ya 6 faizi isə dövlət borcuna xidmətlə bağlı xərclərə sərf edilib.

**İcmal büdcədə 1,7 milyard manata yaxın profisit yaranıb**

İlk 3 ayda işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında illik nəzərdə tutulmuş vəsaitin 20,3 faizi həcmində və yaxud 812,3 milyon manat vəsait istifadə olunub. Müdafiə və milli təhlükəsizlik xərclərinə isə 2 milyard 27,9 milyon manat yönəldilib. Sosialyönlü xərclərə (büdcə xərclərinin əməyin ödənişi fondu, ərzaq məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının alınması, icbari tibbi sığorta üzrə xərclər) isə 3 milyard 755 milyon manat məbləğində vəsait sərf edilib. Birinci rübdə xarici dövlət borcunun qaytarılmasına isə ümumilikdə 486,7 milyon manatın ödənilməsi təmin edilib. 2025-ci ilin yanvar-mart aylarında icmal büdcənin gəlirləri 10 milyard 744,3 milyon manat, xərcləri isə 9 milyard 61,3 milyon manat həcmində icra olunub. İcmal büdcədə 1 milyard 683 milyon manat profisit yaranıb.

**İl ərzində keşmiş məcburi köçkünlərə 311 milyon manat ayrılacaq**

Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərclərinin məbləği isə 41 milyard 407,6 milyon manat nəzərdə tutulub. Büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. Qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla, xüsusi üstünlük təşkil edir.

2025-ci ildə dövlət büdcəsinin xərc prioriteti kimi ilk yeri müdafiə və təhlükəsizlik istiqaməti tutur. Həmin xərclərin məbləği 8 milyard 396,3 milyon manat olmaqla cəmi xərclərin 19 faizini təşkil edir. Büdcə xərclərində ikinci başlıca istiqamət isə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir. Bu xərc siyasətinə əsasən, azad ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 4 milyard manat vəsait nəzərdə tutulub. Büdcədə keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Ümumilikdə, cari ilin ilk rübü üzrə yığımlar büdcədəki bütün xərc istiqamətləri üzrə təminatların tam həcmdə və hətta artıqlaması ilə yerinə yetiriləcəyinə dəlalət edir.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan-İraq arasında siyasi məsləhətləşmələr...

## Yaxın gələcəkdə Hökumətlərarası Birgə Komissiyanın iclasının keçirilməsi nəzərdə tutulur





Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursu balanslı xarakter daşıyır. Respublikamız region və Avropa İttifaqı məkanına daxil olan ölkələrlə əlaqələri dərinləşdirməklə yanaşı, geniş İslam coğrafiyasında həmrəyliyin möhkəmlənməsində də mühüm rol oynayır. Bu da Azərbaycan dövlətinin xalqımızın bağlı olduğu milli-mənəvi dəyərlərə böyük önəm verməsinin təsdiqidir. Bu baxımdan, ölkəmizlə İraq arasında da geniş əlaqələr mövcuddur.

Azərbaycanla İraq arasındakı münasibətlərin qədim kökləri var. Tarixən bizi birləşdirən dini, mədəni əlaqələrimiz olub. Yaxşı haldır ki, hazırda həm Azərbaycan, həm də İraq tarixi zəmin üzərində qarşılıqlı münasibətlərin genişləndirilməsinə böyük maraq göstərirlər. İraq 2 yanvar 1992-ci il tarixində Azərbaycanın müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 30-da qurulub. 1992-ci ildə İraqın Bakıdakı diplomatik nümayəndəliyi baş konsulluq səviyyəsindən səfirlik statusuna qaldırılıb. 2016-cı ilin oktyabr ayında isə Bağdad şəhərində Azərbaycanın səfirliyi fəaliyyətə başlayıb. Azərbaycanla İraq arasında əməkdaşlıq perspektivləri kifayət qədər genişdir. Tərəflər bir çox fəaliyyət sahələrində, o cümlədən infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda, İraqa investisiyalar, eləcə də turizm, təhsil və digər sahələrlə bağlı əməkdaşlığı genişləndirə bilər.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İraqa səfər edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, səfər çərçivəsində Bağdad şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, İraq tərəfindən isə xarici işlər nazirinin ikitərəfli əlaqələr üzrə müavini Məhəmməd Hüseyn Bahr Al-Ulum rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, ticarət, enerji, humanitar və parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. Çoxtərəfli formatda, xüsusilə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) çərçivəsində qarşılıqlı əməkdaşlıq münasibətlərinə toxunulub.

İraq tərəfinə münaqişə sonrası mövcud vəziyyət və sülh prosesi, o cümlədən azad olunmuş ərazilərdə aparılan bərpa, quruculuq işləri, ərazilərimizin minalardan təmizlənməsi və vətəndaşlarımızın öz doğma torpaqlarına qayıdışı barədə məlumat verilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində, nazir müavini Yalçın Rəfiyev İraq Respublikasının rabitə naziri, Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın İraq tərəfindən həmsədri xanım Hiyam Əl-Yasiri ilə görüşüb. Görüş zamanı, Komissiyanın iki ölkə arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlığın inkişafına verdiyi töhfə xüsusi olaraq vurğulanıb və yaxın gələcəkdə Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Komissiyanın növbəti iclasının ikitərəfli əlaqələrə təkan verəcəyinə əminlik ifadə olunub.

Nazir müavini Yalçın Rəfiyevin İraqın ekologiya nazirinin müavini Casim Əbdüləziz Hamadi ilə keçirilmiş görüşündə Azərbaycanın uğurlu COP29 sədrliyi və iqlim dəyişiklikləri sahəsində əməkdaşlıq istiqamətləri müzakirə edilib. İraqın “Rewaq Baghdad Center for Public Policy” beyin və tədqiqat mərkəzini ziyarət edən Yalçın Rəfiyev mərkəzin direktoru Abbas Al-Anbari ilə də görüşüb. Həmçinin mərkəzin rəhbər şəxsləri və tədqiqatçılarının iştirakı ilə təşkil edilmiş dəyirmi masada Yalçın Rəfiyev ölkəmizin xarici siyasəti, COP29 sədrliyi, Azərbaycanın regional və beynəlxalq müstəvidə cərəyan edən proseslərlə bağlı mövqeyi və İraqla əməkdaşlığının inkişaf perspektivləri ilə bağlı məlumat verib və iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Dəyirmi masada Azərbaycan-Ermənistan sülh gündəliyi və işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işləri barədə iştirakçılara ətraflı məlumat verilib.

*Nardar BAYRAMLI*

# Daha iki ünvan...

## Sarıcalı və Ballıcaya növbəti köç baş tutdu!

Azərbaycan bərpa və quruculuq işlərini qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. İkinci Qarabağ müharibəsində qazandığımız qələbədən sonra keçmiş köçkünlərin tezliklə doğma yurdlarına qayıdacağı ilə bağlı vədlər verən ölkə başçısının sözləri hər keçən gün sürətlə reallığa qovuşur. Demək olar ki, hər həftə Qarabağ torpaqlarına köç karvanı yola salınır. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

**55 ailə yola salındı**

Ötən gün Ağdam rayonunun Sarıcalı və Xocalı rayonunun Ballıca kəndlərinə növbəti köç karvanları yola salınıb. Bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə 34 ailə - 141 nəfər, Xocalı rayonunun Ballıca kəndinə isə 21 ailə - 83 nəfər köçürülüb. Köçürülən ailələr ölkənin müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlərdir.

Doğma yurda qayıdan sakinlər onlara göstərilən hərtərəfli dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzur bölgələrində, bu ərazilərə köçürülən keçmiş məcburi köç-




künlərlə yanaşı, həyata keçirilən bərpa və quruculuq layihələrində çalışan, həmçinin müxtəlif dövlət qurumlarının yerli strukturlarında xidməti vəzifələrini yerinə yetirən şəxslər, səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye və energetika sahələrində fəaliyyət göstərən mütəxəssislər daxil olmaqla, ümumilikdə 40 mindən çox insan yaşayır.

**Vacib işlər görülür...**

30 illik işğal dövründə tamamilə dağıdılan Ağdam şəhəri, rayonun bütün kəndləri bir daha düşmənin xislətinin, düşmənçiliyinin göstəricisidir. Lakin Ağdam bu gün yenidən qurulur. Bərpa-quruculuq işlərində xüsusi diqqət göstərilən məsələlərdən biri infrastruktur layihələrinin icrasıdır. Bunu Ağdam şəhərinin, rayonun kəndlərinin timsalında da aydın görmək mümkündür. Ağdam-Bərdə yolu yenidən qurulub. Ağdam-Xankəndi yolu inşa edilir. Dəmir yolu çəkilir. Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Birinci bərpa olunan bina Ağdam məscidi oldu. Muğam Mərkəzi inşa edilir. “İmarət” Kompleksi bərpa edildi. Natəvanın qəbri bərpa olundu. Xaçınçay su anbarı yenidən quruldu. Məktəb binası, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq Ağdamda bir neçə müəssisə fəaliyyət göstərir ki, bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Bir neçə yaşayış kompleksi inşa edilir və bu il istifadəyə veriləcək.

Xatırladaq ki, Sarıcalı kəndinin təməli 2022-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulub. Sarıcalı kəndi 1873 nəfər əhali üçün planlaşdırılıb. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Ballıca kəndində də həyat yenidən canlanır. Bərpa edilən kənd su, qaz, elektrik enerjisi ilə təchiz olunub, internet xətti çəkilib. Tibb və polis məntəqələri üçün binalar, orta məktəb və uşaq bağçası da sakinlərin ixtiyarına verilib.

*Yeganə BAYRAMOVA*

# Qızıl sürətlə bahalaşır

## Əlvan metalın unsiyası 3500 dollara yaxınlaşır

**Dünya birjalarında qızılın qiyməti yeni rekorda imza atıb. 2025-ci ilin aprel ayında qiymətli əlvan metalın bir troya unsiyası 3000 dolları ötüb. Dünyanın nüfuzlu birjalarında iyun ayı üzrə razılaşdırılmış yeni fyuçerslərin qiyməti tarixi maksimumunu yeniləyərək, bir troya unsiyası üçün 3350 dollardan yuxarı qalxıb. Nyu-Yorkun “Comex” birjasında qızılın bir unsiyası üçün növbəti 3 aylıq fevral fyuçerslərinin qiyməti 3300-3400 dollar ehtimal edilib.**

**ABŞ-ın birja analitiklərinin fikrincə, qızılın qiyməti 2025-ci ilin ortalarına doğru artmaqda davam edəcək.**

### Trampın siyasəti, qlobal geosiyasi gərginliklər

Dünyanın aparıcı banklarının da qızılla bağlı gözləntiləri optimistdir. Danimarkanın aparıcı banklarından biri olan “Saxo Bank”ın proqnozuna əsasən, “cari il üçün qızılın qiyməti 3300-dən aşağı olmayacaq. Bankın əmtəə üzrə mütəxəssisi Ole Hansen qızılın bahalaşmasını bir neçə əsas amillə əlaqələndirir. Onun fikrincə, ilk amil kimi qlobal səviyyədə artmaqda olan geosiyasi gərginliklər və ABŞ-ın idxal rüsumlarını yüksəltməsi təsiredici rol oynayır. ABŞ-da faiz dərəcələrinin ötən ilin sonlarında azaldılması və yenidən uçot stavkasında azalma gözləntiləri də qızılın qiymətinə təsir edir. Donald Trampın yeni maliyyə siyasəti ucuz dollar, bahalı qızıl investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl bahalaşır. Eləcə də virtual pulların bahalaşması stimullaşır, qiymətli metallar yeni dəyərlər qazanır.

Bundan başqa, Amerikada və digər inkişaf etmiş ölkələrdə dövlət borclarının sürətlə artması və iqtisadi qeyri-müəyyənlik qızılın daha da bahalaşmasına səbəb olur. Həmçinin beynəlxalq yığımlarda qızıla tələbin artması müşahidə edilir. Dünyanın aparıcı mərkəzi bankları, xüsusilə inkişaf etmiş ölkələrdəki bank institutları ardıcıl olaraq hər il 1000 tondan çox qızıl alıblar. Nəticədə, qızıl dəyər qoruyucu vasitə kimi iqtisadi qurumların əsas portfel alətlərindən biri kimi möhkəmləndi.

### Səhmdarlar və banklar sürətlə qızıl toplayır

Birjalarda qeydə alınan tendensiyalar fonunda investorlarda da qızıla meyillilik güclənir. Onların investisiya portfellərində yığımların transformasiyası müşahidə edilməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu, qızıla yönəldəcək. Analitiklərin fikrincə, daha güclü ABŞ dolları və artan ABŞ istiqraz faizləri ilin ilk yarısında qızıl üzərində təzyiq yarada bilər.

Ümumiyyətlə, qızıl bir qiymətli metal olaraq qlobal iqtisadiyyatda daim real vəziyyət göstəricisi sayılır və hər il qızıl yığımlarının həcmi artır. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2024-cü ildə dünya mərkəzi banklarının xalis qızıl alışı əvvəlki illə müqayisədə 40 faizdən çox artaraq 800 tona çatıb. Dünyada investisiya aləti kimi qızıla tələbat isə 5 faizə yaxın artaraq 5 min tona yaxınlaşıb.

Baş verənlər qızıla həm investisiya kimi qlobal marağın artmasını, həm də bu sənaye sahəsinin investorlar üçün daha cəlbedici olmasını stimullaşdırır. Qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı indi daha məqsədəuyğun sayır, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edirlər. İnvestorların əvvəlki illə müqayisədə bu qiymətli metala tələbatı ən azı 20 faiz artıb.

### Azərbaycan ən çox qızıl investisiya edən ölkələr qrupundadır



Dünya bazarında qızılın bahalaşması Azərbaycan üçün də mühüm rol oynayır. Qızıl iqtisadiyyatda çətin zamanların təhlükəsiz yastığı rolunu oynadığından bütün investorlar kimi azərbaycanlı bank və fondlar, o cümlədən Mərkəzi Bank, Dövlət Neft Fondu öz portfellərində qızıl investisiyalarına üstünlük verməkdədir. Ümumdünya Qızıl Şurasının məlumatına görə, Azərbaycan son 2 ildə qızıl investisiyalarını dayanıqlı şəkildə möhkəmləndirir. 2024-cü ildə ən çox qızıl almış ölkələr sırasında respublikamız da yer alır. Azərbaycan qızıl alışı üzrə beynəlxalq reytinqdə 5-ci yerdə qərarlaşıb.

Qızıl alışlarında Dövlət Neft Fondu (DNF) xüsusi fəallıq nümayiş etdirir. 2024-cü ilin əvvəlində qızıl ehtiyatlarının həcmi 101,8 ton olan Fondun portfelinə daha 63,5 ton əlvan metal toplanıb. Fond 2025-ci ilin ötən dövründə daha 18,7 tonluq qızıl alıb və qızılın bahalaşması rallisində DNF-nin portfelində qızıl ehtiyatlarının həcmi 165,3 tona yüksəlib. Nəticədə, 2025-ci ilin ilk rübündə DNF-nin qızıl altportfelində əhəmiyyətli büdcədənkənar gəlir formalaşıb.

Beləliklə, qızılın dünya bazarında rekord artımları Azərbaycan üçün əlverişli və yeni investisiya bloku kimi xüsusi əhəmiyyət daşıyır.

*E.CƏFƏRLİ*

# Müasirləşmə və milli dəyərlərin harmoniyası!

Ölkəmiz həm müasir çağırışlara cavab verən, həm də milli dəyərləri qorumağı bacaran unikal ailə modeli ilə seçilir. Qloballaşma ilə müşayiət olunan dəyişikliklər ailə anlayışının mahiyyətinə birbaşa təsir edib. İnkişaf etmiş ölkələrdə fərdiyyətçiliyin artması və maddi rifahın əsas məqsəd kimi qəbul edilməsi, ailənin emosional və sosial funksiyalarını ikinci plana keçirib. Dünyanın bir çox ölkəsində ailə institutunun sabitliyi zəifləyib, ənənəvi ailə modelləri artıq aktuallığını itirib.

Azərbaycan isə bu balansı saxlamağı bacaran nadir ölkələrdəndir. Azərbaycan cəmiyyəti müasirləşmə ilə milli dəyərlərin harmoniyasını qorumağı bacarıb. Gənc nəslin təhsilə, peşəkar inkişaf və karyeraya yönəlməsi ailə institutuna sədaqətlə ziddiyyət təşkil etmir. Əksinə, bu, ailə münasibətlərini

## Ölkəmizdə ailə institutu inkişaf etdirilir

daha şüurlu və tərəfdaşlığa əsaslanan modelə çevirir.

Azərbaycanın uğur modeli onun milli-mənəvi dəyərlərə söykənərək qloballaşmanın neqativ təsirlərindən qorunmaq strategiyasına əsaslanır. Ailə yalnız bir sosial qurum deyil, həm də xalqın genetik yaddaşı, milli kimliyinin daşıyıcısıdır. Bu səbəbdən Azərbaycan ailəsi təkcə hüquqi çərçivədə qorunmur, eyni zamanda, mədəniyyət, ədəbiyyat, incəsənət və təhsil vasitəsilə təbliğ olunur.

## Azərbaycanda ailə modeli ilə bağlı dövlət siyasəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

Ölkəmizdə ailəyə yalnız hüquqi birlik kimi deyil, milli-mənəvi institut kimi yanaşılır. Azərbaycanda ailə rifahının gücləndirilməsi istiqamətində geniş sosial islahatlar həyata keçirilir. Xüsusilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailənin müdafiəsi, qadın hüquqları, erkən nikahların qarşısının alınması və gender bərabərliyi sahəsində məqsədyönlü proqramlar həyata keçirilir.

Qadınların iqtisadi fəallığının artırılması, ailədaxili zorakılığın qarşısının alınması üçün məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi və regionlarda fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzləri əhalinin ailə dəyərlərinə daha məsuliyyətli yanaşmasını təmin edir. Bütün bunlar Azərbaycanın ailə siyasətinin yalnız qoruyucu deyil, eyni zamanda, inkişaf etdirici bir mahiyyət daşıdığını göstərir.




## “Ailə və gender yönümlü siyasətlər”

Yeri gəlmişkən, bu günlərdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının və yerli icra hakimiyyəti orqanlarının gender məsələləri üzrə məsul şəxsləri üçün “Ailə və gender yönümlü siyasətlər: fərdlərə, təşkilatlara və cəmiyyətə faydaları” mövzusunda təlimlər keçirilib. 2 gün davam edən təlimlərin keçirilməsində məqsəd gender məsələləri üzrə məsul şəxslərin işinin təkmilləşdirilməsi, onlar arasında səmərəli əlaqələndirmənin təmini, gender bərabərliyi sahəsindəki qanunların və siyasətlərin icrası ilə bağlı səlahiyyətlərini, vəzifələrini aydın şəkildə müəyyən etməkdən ibarət olub.

## “Güclü cəmiyyətin zərif simaları”

Bundan başqa, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və “Regional İnkişaf” İctimai Birliyinin birgə təşkilatçılığı ilə icra edilən “Güclü cəmiyyətin zərif simaları” layihəsi çərçivəsində Ucar rayonunda görüş keçirilib. Layihənin məqsədi regionlarda yaşayan qadınların, yeniyetmə və gənc qızların şəxsi, liderlik və rəqəmsal bacarıqlarının inkişafına dəstək vermək, onların ictimai fəallığını təşviq etməkdir.

Görüşdə çıxış edən Ucar Rayon İcra Hakimiyyəti başçısının müavini Aidə Qəhrəmanova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qadın və gender məsələləri şöbəsinin baş məsləhətçisi Aytəkin Quliyeva, “Regional İnkişaf” İctimai Birliyinin əməkdaşı Gülnarə Həmidova Azərbaycan qadınının mənəvi və ailə dəyərlərinin qorunmasında, gənc nəslin düzgün yetişdirilməsi və cəmiyyətin inkişafındakı müstəsna rolundan danışıblar. Onlar dövlət tərəfindən həyata keçirilən uğurlu qadın siyasətindən, hər sahədə öz potensiallarını reallaşdırmaq və layiqli mövqe tutmaq üçün Azərbaycan qadınlarına yaradılan geniş imkanlardan bəhs ediblər.

Görüşlər fərqli sahələrdə uğur qazanan qadınların - “Maestro School”un təsisçisi, beynəlxalq dərəcəli təlimçi Mədinə Paşayevanın, “Safavy” Onlayn Təhsil Platformasının direktoru, şəxsi inkişaf üzrə mentor, “Her IT Journey” sosial layihəsinin rəhbəri Könül Quliyevanın TEDx formatında çıxışları ilə davam edib. Onlar öz uğur hekayələri və təcrübələrini görüş iştirakçıları ilə bölüşüb, onlarla motivasiyaedici söhbət aparıblar.

*Yeganə*

# Ermənistan referendum keçirəcəkmi?

## Paşinyan bu kampaniyadan siyasi dividend qazanmaq niyyətindədir

**Azərbaycanla bağlanacaq sülh müqaviləsinin zəmin şərtlərindən biri sayılan Ermənistan Konstitusiyasında müvafiq dəyişikliklərin edilməsi, sənədin preambula hissəsindəki Azərbaycan torpaqlarına iddiadan rəsmi imtina Paşinyan hakimiyyətinin əsas gündəm müzakirəsidir. Belə ki, Konstitusiyaya dəyişikliyin məhz referendum yolu ilə baş tutması məqsədəuyğun sayılsa da, bəzən rəsmi İrəvan məsələyə dolayısı ilə fərqli don geyindirməyə, hətta bir sıra strukturların “əli ilə” bu işi həyata keçirməyə çalışdığına işarə vurur. Amma bəllidir ki, Konstitusiya dəyişikliyi məhz referendum yolu ilə baş tutur. 2023-cü il antiterror tədbirlərindən sonra zərurətə çevrilən sülh müqaviləsinin bölgədə dayanıqlı və əbədi normallaşmaya yol açması üçün bu addım atılmalıdır. Paşinyanın bu məsələ ilə bağlı mövqeyi dəyişkən olsa da, Azərbaycan öz tələbində qətidir. Ermənistan isə hətta bir müddətdir aktuallıq daşıyan Aİ üzvlüyünə namizəd olmaq məsələsini referenduma çıxarmaq ideyasında sabit fikrə malik deyil. Məsələn, ötən ilin yayında Paşinyan Aİ üzvlüyü ilə bağlı referendumu məqsədəuyğun saymamışdı - səbəbini isə, guya, ermənilərnin bu ideyanı dəstəkləməsi ilə əlaqələndirmişdi. Ötən ilin noyabrında isə özünün mövqeyini tam dəyişərək referendumun keçirilməsinin vacibliyini önə çəkib. Bu ilin yanvarında da sonuncu mövqeyini yenidən təkrarlayıb. Beləliklə, Ermənistan rəhbərliyi bu və ya digər dəyişkənfikirliyi ilə referendum məsələsini uzadır - beləliklə, ortaya haqlı suallar çıxır: Paşinyanın belə dəyişkən mövqeyi nədən qaynaqlanır və ümumiyyətlə, Ermənistan referendum keçirmək istəyirmi?**

## Konstitusiya dəyişikliyi növbəti seçkilərin əsas təbliğat vasitəsi ola bilər

Əvvələr referendum dəyişikliyi vurğulandığı kimi Aİ üzərindən “müzakirə edilirdisə”, artıq Paşinyan Azərbaycanın haqlı tələbinə açıq cavab vermək məcburiyyətində qalıb. Erməni baş nazir Ermənistan Konstitusiyasındakı 1990-cı il Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasına dair bildirib ki, yeni konstitusiyada həmin bəyannaməyə istinad olmamalıdır. Paşinyanın bu fikri qəbuledilməndir - amma bunun dəyişməsinin qısa zamanda həyata keçirilməsi barədə danışılmaması bir daha onu göstərir ki, erməni tərəfi manipulyasiyadan əl çəkmir. Referendumun bəzən 2026, bəzən isə 2027-ci ildə keçirilməsi, yeni Konstitusiyanın qəbul ediləcəyi ilə bağlı fikirlər bildirilir. Hər bir halda Paşinyan “Konstitusiya kartı”ndan istifadə edərək özünün siyasi ömrünü uzatmağa çalışır. Ötən il yeni konstitusiyanın qəbulu ilə bağlı müddət kimi 2026-cı il (parlament seçkilərindən sonra) göstərilsə də, yenidən məsələnin gündəmə gəlməsi maraqlı hipotez yaradır - bir sıra ekspertlər iddia edirlər ki, Paşinyan hazırda əlində olan münbit situasiyadan istifadə etmək qərarına gəlib. Revanşist müxalifətin zəif olmasından, bu qruplaşmanın daxilində lider probleminin yaşanmasından istifadə etmək üçün parlament seçkilərini önə çəkə bilər. Daxili auditoriya üçün təbliğat vasitəsi kimi isə sülh amili ön plana çıxarılacaq. Beləliklə, siyasi analitiklər birgə keçirilməsi ehtimal olunmaqla referendum və parlament seçkilərinin bu ilinin sonuna qədər reallaşması ehtimalını önə çəkirlər.





Qeyd edək ki, Ermənistan Konstitusiyası ilə bağlı indiyə qədər üç dəfə referendum keçirilib. Bu referendumların hər birində fərqli məsələlər gündəmdə olub. Məsələn, 1995-ci il in iyulun 5-də baş tutan referendumla ölkənin ilk Konstitusiyası qəbul olunub. Nəticədə, Ermənistanda “prezidentli idarəetmə” formasına əsaslanan sistem quruldu.

İkinci referendum isə 2005-ci ilin noyabrın 27-də baş tutub. Bu səsvermə zamanı ölkənin Avropa Şurasına daxil olması ilə bağlı götürülən öhdəliklər müzakirəyə təqdim olundu - nəticədə, insan hüquqları ilə bağlı bölmə genişləndirildi, Avropa standartlarına yaxın islahatlar aparıldı və nəhayət, prezidentin səlahiyyətləri bir qədər azaldıldı, Milli Məclisin və hökumətin idarəetmədəki rolu müəyyən qədər gücləndirildi. Qeyd edildiyi kimi, bu referendum xüsusilə Avropa Şurası və digər beynəlxalq qurumların diktəsi ilə reallaşdı.

## Paşinyan yenə də ikili mövqe tutur - çıxış yolu dəyişiklikdir

Konstitusiyadan Azərbaycan torpaqlarına rəsmi iddianın çıxarılmasının bölgədə yeni reallıqlar yaradacağını Paşinyan da dərk edir - sadəcə olaraq, bunun “siyasi zəminini” yaratmaq üçün erməni baş nazir “köhnə taktika”dan istifadə etmək istəyir. Diqqət yetirsək, son dövrlərdə Paşinyan özünü tam sığortalamaq üçün tez-tez mövqe dəyişikliyinə gedir. Bəzən “məsuliyyəti” üzərindən atmaq üçün qərarın “xalq tərəfindən” verilməli olduğunu önə çəkir. Bəzən isə bu tezisi özü üçün təhlükə sayır - düşünür ki, minimal hesabla belə proses onun arzulamadığı trayektoriya ilə davam edərsə, bu onun siyasi sonunu gətirə bilər. Məhz bu səbəbdəndir ki, erməni baş nazir qeyri-adekvat fikirlərlə yadda qalır. Məsələn, həm Bakının, həm də beynəlxalq aləmin sülhlə bağlı mövqeyinin qarşısında duruş gətirə bilməyən Paşinyan “xalq qərar verməlidir” deyirdisə, indi tamam fərqli tezislər irəli sürür - o bildirir ki, “Ermənistanda keçirilən heç bir konstitusiya referendumu xalqın iradəsini əks etdirməyib. Onun sözlərinə görə, Ermənistanda qanunçuluq və cəmiyyət arasında uçurumun səbəbi də budur. “Və bu uçurum digər məsələlərlə yanaşı, bütün konstitusiya referendumları zamanı ictimaiyyətin rəsmi nəticələrin xalqın iradəsini ifadə etmədiyi və ya tam ifadə etmədiyinə əmin olması ilə bağlıdır”, - Paşinyan bildirib. O, hesab edir ki, mövcud hüquqi nizamla cəmiyyət arasında üzvi əlaqə olmalıdır.

Beləliklə, gah 2027-ci ildə, gah da 2026-cı ilin referendum ili olacağını söyləyən Paşinyan ən pis ssenariyə də hazır olduğunu bildirir. O, özünün siyasi rəqiblərinə (xüsusilə revanşist cinaha) anlatmağa çalışır ki, prosesin axarını məhz “özü tənzimləyəcək”.

## 3 referendum, 2 dəyişiklik - son səsvermə təxirə düşdü...

2015-ci ilin dekabrında baş tutan referendumda isə ən əsas dəyişiklik kimi “prezidentli respublikadan” “parlamentli respublika” modelinə keçid irəli sürüldü. Konstitusiya dəyişikliyinə əsasən prezidentin səlahiyyətləri məhdudlaşdırıldı, daha çox simvolik fiqura çevrildi - baş nazir ölkədə əsas icra orqanı kimi mahiyyət daşımağa başladı. Paralel olaraq parlamentin səlahiyyətləri və rolu da gücləndirildi. Vurğulayaq ki, bu dəyişikliklər 2018-ci il parlament seçkilərindən sonra qüvvəyə mindi və məhz həmin ildən Ermənistan parlamentli respublika oldu.

2020-ci ildə Konstitusiya Məhkəməsinin tərkibi ilə bağlı Ermənistan parlamentində ciddi müzakirələr aparıldı və dəyişikliklər baş verdi, amma bu referendum yolu ilə yox, qanunverici orqanın vasitəsilə edildi - 2020-ci il üçün planlaşdırılan referendum (Konstitusiya Məhkəməsinin tərkibinin dəyişdirilməsi üçün) COVID-19 pandemiyasına görə təxirə salındı.

*P.İSMAYILOV*

# Rusiya “Talibanı” “siyahı”dan çıxardı...

## Mərkəzi Asiyanı nə gözləyir?

Aprelin 17-də Rusiyanın Ali Məhkəməsi Baş Prokurorluğun “Taliban”ın fəaliyyətinə qoyulan qadağanın dayandırılması ilə bağlı iddiasını təmin edib və hərəkatın terror təşkilatları siyahısından çıxarılması barədə qərar verib. Hakim Oleq Nefedov bildirib ki, qərar dərhal icra olunmalıdır.

Qeyd edək ki, iclas bağlı qapılar arxasında keçirilib və nəticədə iddianın təfərrüatları məlum olmayıb. Qeyd edək ki, Rusiyada ötən il “Terrorizmlə mübarizə haqqında” federal qanuna edilmiş dəyişiklikdən sonra “Taliban” terror təşkilatları siyahısından çıxarılan ilk analogiyadır. Qanunda edilmiş dəyişikliyə görə, terrorizmin təbliğinə, bəraət qazandırmağa, dəstəkləməyə yönəlmiş fəaliyyətinə və ya bu kimi cinayətlərin törədilməsinə xitam verən təşkilatın fəaliyyətinə qoyulan qadağa məhkəmənin qərarı ilə dayandırıla bilər.

“Taliban”ın sözçüsü Zəbihullah Mücahid isə Ali Məhkəmənin qərarını alqışlayıb. “Rusiya regionda mühüm ölkədir və Əfqanıstanın onunla yaxşı və diplomatik cəhətdən etibarlı əlaqələri var. Ticarət əlaqələri də müsbət inkişaf edir”, - deyə Mücahid bildirib.

### Rusiya ilk deyil...

Taliban 2003-cü ildən Rusiyanın terror təşkilatları siyahısına salınıb. Ali Məhkəmənin onun fəaliyyətini qadağan edən qərarında hərəkatın Çeçenistandakı qeyri-qanuni silahlı qruplarla əlaqə saxladığı və terror üsullarından istifadə etdiyi bildirilirdi. Qeyd edilirdi ki, “Taliban” Usamə bin Ladenin dəstəyi ilə Özbəkistan, Tacikistan və Qırğızıstan da daxil olmaqla, Mərkəzi Asiya dövlətlərində islami hərəkatların hakimiyyəti ələ keçirməsi üçün imkanlar axtarışında olub. 2021-ci ilin avqustunda ABŞ qoşunlarının Əfqanıstandan çıxması fonunda “Taliban” ölkədə hakimiyyətə gəlib. Əfqanıstan İslam Respublikasının əvəzinə hərəkat üzvləri tarixdə ikinci dəfə Əfqanıstan İslam Əmirliyinin yaradıldığını elan ediblər.

Ötən ilin yanvarında Rusiyanın xarici işlər naziri Sergey Lavrov ölkəsinin “Taliban”la təmasda olduğunu, lakin siyasi öhdəliklərini yerinə yetirməyənə qədər hərəkatın yaratdığı hökuməti tanımayacağını bəyan etmişdi. 2024-cü ilin mayında isə Xarici İşlər Nazirliyi və Ədliyyə Nazirliyi Rusiya prezidentinə “Taliban” hərəkatının qadağan olunmuş təşkilatlar siyahısından çıxarıla biləcəyi barədə məlumat vermişdi.

Xatırladaq ki, “Taliban” 2023-cü ildə Qazaxıstanda terror təşkilatları siyahısından çıxarılıb, 2024-cü ilin sentyabrında isə Qırğızıstanın Baş Prokurorluğu respublikada qadağan olunmuş təşkilatların reyestrini yeniləyərək “Taliban”ı oradan çıxarıb. Özbəkistan isə “Taliban”la iqtisadi və siyasi qarşılıqlı əlaqə baxımından ən fəal ölkələrdən sayılır. 2024-cü ilin avqustunda Özbəkistanın baş naziri Abdulla Aripovun Əfqanıstana səfəri zamanı tərəflər ümumi dəyəri 25 milyard dollar olan layihələrin icrasını nəzərdə tutan 35 sənəd imzalayıblar.



### Plan fərqli idi...

Vurğulayaq ki, beynəlxalq aləmin ayrı-ayrı subyektləri hələ illər öncə “Taliban”la əlaqələr qurmaq üçün hərəkətə keçmişdi - 2020-ci ilin fevralında ABŞ və “Taliban” Qətərin paytaxtı Dohada Əfqanıstanda sülh prosesini başlatmalı olan saziş imzalamışdılar. Bu razılaşmalara əsasən, Qərb öz qoşunlarını ölkədən çıxaracaq, “Taliban” isə “Əl-Qaidə” ilə əməkdaşlığı dayandıracaq, Əfqanıstanın ozamankı rəsmi hökuməti ilə danışıqlara başlayacaqdı. Amma danışıqlar prosesi heç başlamadı belə - 2021-ci ildə “Taliban” ölkəyə nəzarəti ələ keçirəndə prezident Əşrəf Qani BƏƏ-yə qaçdı. Beləliklə, proses fərqli məcrada davam etməyə başladı.

### Kreml “Talilban”dan “istifadə edir”?

Siyasi ekspertlərin fikrincə, əgər Rusiya üçün “Taliban”ın qadağan olunmuş terror təşkilatları siyahısından çıxarılması bir çox cəhətdən simvolik addım kimi görünsə də, daxili legitimliyin kəskin çatışmazlığı şəraitində “Taliban” üçün bu, son dərəcə mühüm siyasi addımdır. Bu, Kabildə mövcud siyasi hakimiyyətin tanınma arealının daha da genişlənməsi müstəvisində əsaslı bir fəaliyyətdir.

Vurğulanır ki, “Taliban”ın tanınması Rusiyanın iqtisadi planları daxilində tənzimlənir - belə ki, Ali Məhkəmənin qərarından sonra böyük layihələr, o cümlədən trans-Əfqan dəmir yolu və bəlkə də hətta 2010-cu illərdə planlaşdırılan, lakin ləğv edilən TAPI (Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan) qaz kəməri layihəsi üçün imkanlar yaranır.

Məsələdə daha fərqli nüansların olduğu da gizlədilmir - belə ki, Əfqanıstan üzrə beynəlxalq ekspert Sadiq Amini xarici KİV-ə müsahibəsində qeyd edib ki, Rusiya “Taliban”ı öz geosiyasi maraqlarının təminində istifadə etmək üçün də terrorçular siyahısından çıxara bilər. Onun fikrincə, rusiyalı diplomatların bu hərəkatla əlaqə yaratmasına baxmayaraq, Rusiya xüsusi xidmət orqanları “Taliban”a terror təşkilatı kimi baxmaqda və ona uyğun davranmaqda davam edəcək.

### “Tanısa” belə sanksiyalar qüvvədə qalacaq...

Qeyd etmək lazımdır ki, Ali Məhkəmənin qərarına baxmayaraq, Rusiya BMT Təhlükəsizlik Şurasının 1999-cu ildə “Xüsusi iqtisadi tədbirlər və məcburiyyət tədbirləri haqqında” qanununa uyğun davranmalıdır - Kreml “Taliban”a qarşı qəbul edilən məcburi tədbirlər rejiminə (sanksiyalara) əməl etməyə borcludur. Xüsusilə, Rusiya Federasiyası BMT-nin konsolidə edilmiş sanksiya siyahısında olan şəxslərin aktivlərini dondurmalı, onların ölkəyə daxil olmasını qadağan etməli (istisnasız) və belə şəxslərə silah və hərbi yardımın verilməsini əngəlləməlidir.

Yeri gəlmişkən, məsələ ilə bağlı BMT də öz mövqeyini açıqlayıb. BMT-nin sözçüsü Stefan Dujarrik Rusiya Ali Məhkəməsinin Talibanın “terrorçu təşkilat” kimi tanınması qərarını ləğv etməsinə münasibət bildirərkən deyib ki, “Taliban”ın BMT-dəki statusu üzv dövlətlər tərəfindən müəyyən olunur və dəyişməz olaraq qalır. Sözçü əlavə edib ki, bu, Rusiya Federasiyasının suveren qərarıdır.

**P.İSMAILOV**

# Yelisey Sarayı “xarici müdaxilə” izi axtarışında

Fransada Makronun tabeçiliyində olan iqtidar komandası insanların sərbəst toplaşmaq hüququna qarşı çıxır. Ölkə boyuca artan problemlərin həlli yollarını tapmaqda aciz görünən Yelisey Sarayı vətəndaşların getdikcə genişlənən etirazlarının qarşısını almaq üçün bir qayda olaraq polis zorakılığına əl atır. Hakim komanda daxili siyasətdəki permanent uğursuzluqları, həmçinin “xarici müdaxilə” bəhanəsi ilə əsaslandırmağa çalışır. Guya, üçüncü ölkələr Fransanın daxili işlərinə qarışır və hansısa addımlarla hökumətin planlarını pozurlar. Yelisey Sarayı son günlərdə Fransada genişlənən etirazlarda, xüsusilə də həbsxana qiyamlarında Əlcəzair və Rusiyanın əli olduğu iddiasından çıxış edib.

### Fransanı silkələyən yeni həbsxana qiyamları

Əsrlər boyunca böyük mədəniyyət yaradan, bəşəriyyətin irəli getməsinə müəyyən töhfələr verən Fransa hazırda tarixinin ən çətin dönəmindən keçir, desək, yanılmarıq. Ölkə bir növ qara zolağa düşüb. Belə ki, mənfi meyllər həyatın bütün sahələrini əhatə edir. Xüsusilə də az qala bütün dünyaya demokratiya dərsi vermək iddialarında olan, özü üçün “azadlıq”, “bərabərlik”, “qardaşlıq” şüarlarını deviz seçən Fransada hazırda bu dəyərlərin aşınması ölkənin kədərli mənzərəsi barədə konkret təsəvvür yaradır. Başı uzaq coğrafiyalarda yerləşən ölkələrin daxili işlərinə qarışan, Afrikada, dənizaşırı ərazilərdə müstəmləkəçilik siyasətini daha da sərtləşdirmək üçün yollar axtaran Makron iqtidarı daxili məsələləri bir növ taleyin ümidinə buraxıb. Bunun nəticəsidir ki, ölkədə sosial-iqtisadi problemlər getdikcə artır. Hökumətin səriştəsiz siyasətinə görə həyatlarının çətinləşməsi, sosial ədalətsizliyin artması ilə barışa bilməyə insanlar çıxış yolunu küçələrə, meydanlara axışıb hakim komandaya qarşı etiraza qalxmaqda görürlər.

Fermerlərin bütün ölkəni əhatə edən “peyin inqilabı”nın ardından Fransada etirazların yeni dalğası başlayıb. Bu dəfə ölkə həbsxanalarda məhbusların qiyamı ilə silkələnir. Bazar günü axşamdan bəri bu müəssisələrdə insidentlərin sayı 12-yə yüksəlib. Bəzi məlumatlara görə, insidentlər narkotik alverçilərinin iri dəstələri tərəfindən hakimiyyətin son addımlarına cavab olaraq törədilib. Fransanın daxili işlər naziri Bruno Retayo bildirib ki, narko-qopniklərlə (fransızca-narco-racaille) qarşı-qarşıya qaldıqlarına əmindirlər. “Onlar bizə müharibə elan etməyiblər. Biz narkotik alveri haqqında yeni qanun qəbul edərək onlara müharibə elan etmişik. Bilirlər ki, biz onların ciblərinə zərbə vurmaq niyyətindəyik”, - deyə nazir bildirib.

Üç gecə ərzində bandalar həbsxanaların və həbsxana işçilərinin təlim mərkəzinin yaxınlığında avtomobilləri yandırıblar. İki yerdə isə odlu silahdan atəş açılıb. Bir çox hallarda cinayətkarlar DDPF hərfləri şəklində qraffit qoyublar. Bu, “Droits des Prisonniers Français - Fransız məhbusların hüquqları uğrunda” sözlərinin qısaltmasıdır. Maraqlıdır ki, bu təşkilat haqqında indiyə kimi heç kim heç nə eşitməyib. Təşkilatın yaydığı məlumatda ədliyyə naziri Jerald Darmanen məhbuslara müharibə elan etməkdə ittiham olunur. “Biz yalnız insan hüquqlarına riayət olunmasını istəyirik. Əgər 2025-ci ildə kameralarda məhbuslar televizora baxa, siqaret çəkə və yemək yeyə bilirlərsə, bu, yalnız atalarımızın bu fundamental hüquqlar uğrunda mübarizə aparması sayəsindədir”, - deyə təşkilatın yaydığı bəyanatda vurğulanır.

Qeyd olunur ki, Fransa üçün ciddi problem ən təhlükəli 100 narkobaronun köçürüləcəyi iki xüsusi həbsxananın yaradılması olacaq. Ən ciddi rejimli həbsxanalarda ziyarət və xarici aləmlə əlaqə üçün daha sərt qaydalar tətbiq ediləcək. Orada, xüsusilə, mobil telefonların gətirilməsinə qarşı əlavə tədbirlər görüləcək - hazırda Fransa həbsxanalarında on minlərlə belə telefon var. Bütün bunlar başçıların həbsxanadan öz narkotik bandalarını idarə etməsinə mane olmalıdır ki, bu da indi hər yerdə baş verir.

Fransada başlayan və hələlik sonu görünməyən həbsxana qiyamlarını iki nöqteyi-nəzərdən dəyərləndirmək mümkündür. Rəsmi versiyalara istinad etsək, o qənaət hasil olur ki, yenə də Makron komandasının səriştəsiz, yarıtmaz siyasəti ölkədə cinayətkarlığın, o cümlədən də narkomaniyanın artmasına zəmin yaradıb. Necə deyərlər, Yelisey Sarayı səpdiyi toxumların acı meyvələrini dadır. Digər qənaət isə ondan ibarətdir ki, Yelisey Sarayı etirazçılara münasibətdə səhv taktikasını növbəti dəfə təkrarlayır. Etirazları zor gücünə yatırmaq əvəzinə, arzuolunmaz nəticələri doğuran səbəbləri aradan qaldırmaq lazımdır. Belə görünür ki, hakim komandanın problemlərin üstünə getməyə, insanların narahatlığını aradan qaldırmağa nə istəyi, nə də potensialı qalıb.



Makron iqtidarının ortaya atdığı “daxili qiyamlarda xarici qüvvələrin izi var” kimi iddialar fonunda sual yaranır: Bəs niyə Rusiya və Əlcəzair?

Əvvəlcə onu vurğulamaq yerinə düşər ki, Fransa hakimiyyəti üçün daxili problemlərə görə ölkə hüdudlarından kənarda səbəbkarlar axtarmaq yeni bir taktika deyil. Xatırladaq ki, bundan əvvəl Azərbaycanın da adı Yelisey Sarayının “qara siyahı”sına salınıb. Makronun özü başda olmaqla komandasının üzvləri səs-səsə verərək Fransanın üzləşdiyi böyük problemlərə görə Azərbaycanı günahlandırırlar. Guya ölkəmiz onların daxili işlərinə qarışır. Halbuki, rəsmi Bakının içi Fransa qarışıq hansısa bir ölkəyə qarşı belə bir niyyəti olmayıb. Azərbaycan sadəcə olaraq, Fransanın Afrikada, dənizaşırı ərazilərdə apardığı sümürmə siyasətini tənqid edir, bunun yolverilməz olduğunu bildirir. Bu, sırf insan haqları məsələsidir və burada Yelisey Sarayından gələn izahların heç bir əsası yoxdur.

Həmçinin Yelisey Sarayının ölkə daxilindəki son qiyamlarda Rusiya və Əlcəzair izi axtarması da tamamilə absurddur. Makronun siyasi texnoloqları bu versiyanı Fransa ilə adları çəkilən iki ölkə arasında siyasi münasibətlərin kəskinləşməsi fonunda gündəmə gətiriblər. Məlumdur ki, Parislə Moskva arasında geosiyasi amillərdən qaynaqlanan ziddiyyətlər Rusiya-Ukrayna müharibəsi fonunda daha da artıb. Makron davamlı olaraq Rusiyaya qarşı təzyiqlərin gücləndirilməsi, hətta Avropa ölkələrinin hansısa bir formada müharibəyə qoşulması təşəbbüslərindən çıxış edir. İki ölkə arasında siyasi qalmaqalların yaşanması adi hala çevrilib. Cari ilin əvvəlində Rusiyanın Marseldəki Baş Konsulluğuna hücum oldu. Konsulluğun ərazisində partlayışlar törədildi. Eyni zamanda, Rusiya Xarici İşlər Nazirliyinin əməkdaşının Fransada saxlanılması diplomatik qalmaqal yaratdı. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov baş verənlərin Fransanın öhdəliklərinə zidd olduğunu

### Bəs niyə Əlcəzair və Rusiya?

vurğulayıb.

Fransa ilə Əlcəzair arasında tarixən yaşanan ziddiyyətlər də beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Əlcəzair rəsmi adı ilə yanaşı, həm də “1,5 milyon şəhidlər ölkəsi” adlanır. Həmin şəhidlər məhz Yelisey Sarayının müstəmləkəçilk siyasətinin qurbanları olaraq həyatlarını itiriblər. Rəsmi Paris hələ də Əlcəzairdə törədilən soyqırımına görə üzr istəməyib və təzminatlar ödəməyib.

Tarixi ədavət unudulmur və ikitərəfli münasibətlər pisləşməkdə davam edir. 2024-cü ilin yayında rəsmi Paris Mərakeşin Qərbi Sahara üzərində suverenliyini tanıyandan sonra Fransa ilə Əlcəzair arasında növbəti gərginliyin əsası qoyulub. Buna cavab olaraq, Əlcəzair Parisdəki səfirini geri çağırıb və Prezident Abdelmacid Tebbun həmin ilin sentyabr ayında Fransaya planlaşdırılan səfərini ləğv edib. Bir neçə gün bundan əvvəl isə Fransada əlcəzairlilərin, o cümlədən konsulluq nümayəndəsinin həbsinə cavab olaraq, bu ölkənin 12 təmsilçisinə Əlcəzair ərazisini 48 saat ərzində tərk etmək əmri verilib. Bu gərginlik Fransa Prezidenti Emmanuel Makron ilə əlcəzairli həmkarı Abdelmacid Tebbun arasında münasibətləri yaxşılaşdırmaq məqsədilə baş tutmuş telefon danışığından iki həftə sonraya təsadüf edib. Əlcəzairin Xarici İşlər Nazirliyinin nümayəndəsi Sofiane Şaib fransızdilli “Əlcəzair III” radio kanalına müsahibəsində bildirib ki, iki ölkə arasında böhranı Fransanın daxili işlər naziri Brüno Rötayo yaradıb. Əlcəzairin Fransadakı konsulluğunun əməkdaşının həbsi vəziyyəti gərginləşdirib. “Əlcəzair və Paris arasında yaranan bu gərginliyə görə Fransanın daxili işlər naziri məsuliyyət daşıyır. O, iki ölkənin rəhbərləri arasında baş tutan telefon danışığından sonra tərəflər arasında başlayan yaxınlaşmaya mane olmaq istəyir. Daxili işlər naziri səkkiz ay əvvəl qeydə alınan bir işi yenidən qızışdırıb və Amir Dzat kimi tanınan Əmir Buxorsun oğurlanması ilə bağlı məsələdən istifadə edib. Mövcud böhran və gərginlik bu işin qəsdən dramatikləşdirilməsinin nəticəsidir. Bu hal iki dövlət başçısının arzuladığı əlaqələrə maneə yaradıb”, - deyə S.Şaib vurğulayıb.

Qeyd olunan faktlar rəsmi Parisin həbsxana qiyamlarının izini nə üçün Əlcəzairdə və yaxud Rusiyada axtardığının motivlərinə aydınlıq gətirir. Aydın məsələdir ki, Fransanı ağuşuna alan etirazların əsas səbəbi Yelisey Sarayının yarıtmaz siyasətidir. Makronun komandasının isə bunu açıq deməyə cəsarəti və iradəsi yoxdur. Belə olan halda iqtidar təmsilçiləri ənənəvi düşmənlərdən “günah keçiləri” düzəltməyi ən asan çıxış yolu kimi görürlər ki, bu da onların daxili problemlərə son dərəcə biganə yanaşmalarının göstəricisidir.

**Mübariz ABDULLAYEV**

# Həlledici həftə...

## Hədəf SƏRVƏT qazanmaqdır!

Bu həftə Rusiya-Ukrayna münaqişəsinin nizamlanması istiqamətində mühüm proseslərin baş verməsinin şahidi ola bilərik. Belə ki, ABŞ Prezidenti Donald Tramp öz "Truth" sosial şəbəkəsində bildirib ki, Ukraynadakı münaqişənin nizamlanmasına dair razılaşma bu həftə əldə olunacaq. "Ümid edirəm ki, Rusiya və Ukrayna bu həftə razılıq əldə edəcəklər", - deyə Amerika lideri qeyd edib. Trampın şərhində xüsusi bir məqam da diqqət çəkir - o, vurğulayıb ki, razılaşma əldə olunacağı təqdirdə hər iki tərəf ABŞ-la aktiv iş görməyə başlayacaq və bu da onlara "sərvət qazanmağa" imkan verəcək. Bu arada Prezident Volodimir Zelenski Pasxa bayramı günü elan olunan atəşkəs rejiminin 30 gün müddətinə uzadılmasını təklif edib - o, öz teleqram səhifəsində qeyd edib ki, bayram günü atəşkəs forması əldə edilib və bu formatın uzadılması zəruridir. "Ukrayna ən azı 30 gün müddətinə uzadılma ehtimalı ilə mülki infrastruktura uzaqmənzilli pilotsuz təyyarələr və raketlərin hər hansı zərbələrindən çəkinməyi təklif edir", - deyə Zelenski belə bir təklif irəli sürüb. Dövlət rəhbəri əlavə edib ki, əgər Rusiya belə bir addımla razılaşmasa, bu, onun yalnız insanların həyatını məhv edən və müharibəni davam etdirmək istədiyinin sübutu olacaq.

### Trampın bəyanatı özünü doğruldacaq?

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Rusiya və Ukrayna atəşkəs məsələsində ortaq məxrəcə gəlməyə yaxındırlar. "Baxmayaraq ki, hər iki tərəf siyasi ritorikalarında cəbhədəki nailiyyətlərini göstərməyə çalışırlar, yaxın zamanda onlar arasında razılaşmanın əldə edilməsi mümkün görünür. Ən əsas məqam budur ki, ABŞ moderator rolunu oynamaqla yanaşı, həm Rusiyaya, həm də Ukraynaya təzyiqlər edir. Artıq təzyiqlər öz nəticəsini göstərməkdədir. Əgər Trampın özü belə bir fikir yürüdürsə, deməli, önümüzdəki günlərdə hər hansı önəmli prosesin baş verəcəyi ehtimal olunur. Bu yaxınlarda Parisdə baş tutan ABŞ-Aİ-Ukrayna görüşündə atəşkəslə bağlı ətraflı müzakirələr aparılıb. Böyük ehtimalla, London görüşündə də bu məsələ ətrafında müzakirələr aparılacaq. Hazırkı nöqteyi-nəzərdən yanaşanda belə hesab etmək olar ki, münaqişə tərəfləri atəşkəs sazişi imzalaya bilərlər".




### Çabalar iqtisadi maraqlara söykənib....

Qeyd edək ki, aprelin 24-də Tramp administrasiyası ilə Zelenski hökuməti arasında Ukraynadakı mineral ehtiyatların istismarına dair sazişin imzalanması gözlənilir. Qərb KİV-lərinin məlumatına görə, bu sazişə əsasən, ABŞ Ukraynadakı mineral ehtiyatların 50 faizinə sahib ola bilər. Bundan başqa, ABŞ-ın nəzarəti altında olan xüsusi İnvestisiya Fondu yaradılacaq və ehtiyatların istismarından əldə olunacaq gəlirlər bu fonda yönləndiriləcək. Bu baxımdan bir çox ekspertlərin fikirlərinə görə, Trampın Rusiya ilə Ukrayna arasında atəşkəsin təmin olunması üçün atdığı bütün addımlar və göstərdiyi çabalar iqtisadi maraqlara söykənib, yəni ABŞ rəhbərinin başlıca hədəfi Ukraynada, hətta Rusiyada müxtəlif təbii sərvətlərin istismarına sərmaya yatırmaqdır. Eyni zamanda, belə bir versiya da var ki, Trampın Ukraynanın mineral ehtiyatlarının istismarında Kreml ilə birgə əməkdaşlıq etməsi də mümkündür. Məsələ ilə bağlı politoloq Tural İsmayılov qəzetimizə şərhində bildirib ki, Trampın Ukrayna siyasətində iqtisadi maraqlar prioritet təşkil edir. "ABŞ ilə Ukrayna arasında imzalanması gözlənilən saziş məhz buna söykənib. Xüsusilə qeyd etmək lazımdır ki, Trampın son açıqlamasında əsas mesaj ABŞ-Rusiya razılaşmasına yönəlib, ABŞ-Ukrayna razılaşması o qədər də əhəmiyyət kəsb etmir. Son proseslər onu deməyə əsas verir ki, yaxın gələcəkdə ABŞ və Rusiya Ukraynanın təbii ehtiyatlarını birgə istismar edəcəklər. Proseslər elə buna doğru gedir. ABŞ Ukraynada geoiqtisadi mövqeyini möhkəmləndirəcək. ABŞ ilə Rusiya arasında pərdəarxası razılaşmaların olacağı istisna deyil".

*Yunis ABDULLAYEV*

# Viran vücuddan qaçış

## Akutaqava Rünoskenin həyatıyla sənətinin qovuşağında

Akutaqavanın meydana çıxmasıyla yapon ədəbiyyatı Qərb ədəbiyyatına möhkəm tellərlə calandı, yapon nəsri dünya ədəbi prosesinin tamhüquqlu üzvünə, danılmaz faktına çevrildi. Onun yaradıcılığı milli köklərdən şirə çəksə də, qol-budağını Avropaya, siyasi-ictimai fikir sarıdan bir o qədər olmasa da, sənət düşüncəsi baxımından Avropanın bir parçasına çevrilmiş Rusiyaya qədər uzatmışdı. Başqa sözlə, Akutaqava yapon zəminində boy atmış avropalıydı. Buna onun aldığı təhsil, başda ingilis dili olmaqla aparıcı Avropa dillərinə yiyələnməsi də münbit şərait yaratmışdı. Məhz bunların sayəsində Akutaqavanın adı modernizm əsrinin öncülləri sırasında çəkilir. Şekspir, Höte, Dikkens, Po, Qoqol, Dostoyevski, Tolstoy, Turgenev, İbsen, Strindberq, Bodler, Flober, Mopassan, Çexov, Frans, Şou, Hauptman, Nitsşe, Verlen... onun adını böyük ehtiramla zikr elədiyi ustadlardır.

Sənət tanrısı onun yeganə bütü, incəsənət onun dini-imanı, sarsılmaz əqidəsiydi. Rus-Avropa ədəbiyyatından əxz elədiyi bəzi mövzuları yapon həyatı kontekstinə oturtmaqla Akutaqava bir yandan milli ədəbiyyatın öz sərhədlərini aşıb dünya ədəbiyyatına inteqrasiya olunmasına, o biri yandan ümumbəşəri mövzuların milli zəmində kök atmasına töhfəsini verirdi. Cəmi otuz beş il yaşamasına baxmayaraq yapon nəsrinin ümumdünya ədəbi prosesinə qoşulmasında, Yasunari Kavabata, Kobo Abe, Kendzi Maruyama, Kendzaburo Oe kimi ədəbiyyat generallarının hesabına o prosesdə söz yiyələrindən birinə çevrilməsində Akutaqavanın payı da, rolu da misilsizdir. Bu baxımdan onu modern yapon ədəbiyyatının atası saymaq olar. 1935-ci ildə təsis olunmuş Akutaqava mükafatı bu gün də Yaponiyada ən yüksək ədəbi mükafat sayılır.

***

Akutaqava Rünoske (yaponlarda soyad addan əvvəl yazılır) təkcə yapon nəsrinin yox, cəmi dünya ədəbiyyatının ən böyük novella ustalarından biridir. Əsərlərinin təməlində duran nəzəri-fəlsəfi düşüncə baxımından əvvəl-əvvəl naturalizmə meyl göstərirdi, hesab eləyirdi ki, insanın taleyini üç başlıca faktor - irsiyyət, mühit, bir də təsadüflər müəyyənləşdirir. Ancaq naturalizmin təsvirçiliyi, gerçəkliyin üzünü köçürmə prinsipi onu qane eləmirdi. Akutaqavanın bədii-estetik metodu təsvirə yox, təhlilə əsaslanırdı, o düşünürdü ki, əsl sənətkar reallığı doğru-düzgün əks etdirməklə işini bitmiş saymamalı, obrazların psixoloji dərinliyinə enməli, personajları müxtəlif situasiyalara salmaqla onlar üzərində tədqiqat, eksperiment aparmalı, insan təbiətinin gizli qatlarına baş vurmalıdır. İnsan-cəmiyyət qarşıdurması, sosial kataklizmlər, solçu fəhlə hərəkatları, sağçı faşist ayaqlanmaları onu az maraqlandırırdı, toplumun qayğılarına o, yad-yabançı, biganəydi. Personajlarının prototipləri də tək-tək halda şəxsən tanıdığı, bir zamanda, bir diyarda yaşadığı insanlar olardı; yazıçı qəhrəmanlarını öz zəmanəsinə, yaradıcılıq laboratoriyasına çox vaxt tarixi salnamələrdən, qədim fəlsəfi-didaktik hekayətlərdən, əfsanələrdən, lətifələrdən çağırar, onlara etik-estetik mövqeyinə uyğun yeni həyat verər, onların başına yeni macəralar, oyunlar gətirərdi.

Çağdaşları bu cəhətinə görə onu tez-tez qınayar, müasirlərinin dərdlərinə, qayğılarına biganə yanaşmaqda suçlayardılar. Çoxu belə düşünürdü ki, ölüb getmiş zamanlarda eşələnməyin bir faydası yoxdur, yazıçı zəmanəsinin aktual problemlərini qabartmalı, çiyin-çiyinə yaşadığı adamların xarakterik cizgilərini yaratmalı, məhz onların problemlərindən bəhs eləməlidir. Akutaqava isə öz qəhrəmanlarını qeyri-adi situasiyalara salmağın, həmin situasiyalarda onları sınaqdan keçirməyin ustasıydı; qeyri-adi, nağılvari, fantasmaqorik səhnələrsə müasir həyatın fonunda təsvir olunanda çox vaxt qeyri-təbii, saxta, süni alınır, inandırıcı görünmür, bəzən də gülməli çıxır. Belə stilistik fəsadlar yaranmasın deyə gərək personajı nağılların, əfsanələrin qoşulub-qondarıldığı qədim dövrlərə, başqa sözlə, ya tarixi, ya da mifoloji zamana aparıb çıxarasan. Hansısa möcüzəvi situasiyanın yüz illər, yaxud min illər bundan qabaq baş verdiyinə oxucunu inandırmaq daha asandır.

O ki qaldı aktuallığa, insan mövzusu, insanın psixoloji çevrilmələri, dondan-dona, haldan-hala düşməsi həmişə aktualdır, qədim insanla indiki insanın fizioloji, psixoloji, antropoloji özəllikləri arasında elə mühüm fərq yoxdur. Akutaqava öz tənqidçilərinə bunları başa salmaqda, onları yaşanan günün reallıqları kontekstindən çıxarmaqda çətinlik çəkirdi. Dahilərə ağıl öyrətmək istəyən həmişə çox olub, bu cəhətdən o da istisna deyildi.

***

Uzun sürməyən yaradıcı ömründə - vur-tut on ildən bir az artıq müddətdə Akutaqava təqribən yüz əlli novella qələmə almışdı. İlk mətbu əsərlərindən olan "Rasömon darvazası" (1915) işıq üzü görəndən sonra novellanın gənc müəllifi kiçik hekayələr ustası kimi ad çıxarmışdı, yapon ədəbiyyatının canlı klassikləri onun ilk qələm təcrübələri haqqında xoş sözlər demişdilər. Bilindiyi kimi, sonralar dünya şöhrətli yapon rejissoru Akira Kurosava bu əsərlə eyni adda film də çəkmişdi, hərçənd filmin süjeti əsasən Akutaqavanın "Cəngəllikdə" (1922) adlı ən məşhur novellasının motivləri üzərində qurulmuşdu - həmin novella haqqında əvvəllər ayrıca danışdığımızdan bu yazıda onun üstündə durmuruq.

Əhvalat orta əsrlərdə Kioto şəhərində baş verir. Təbii fəlakətlər, epidemiyalar ucbatından şəhərin firavanlığından əsər-əlamət qalmayıb, aclıq, yoxsulluq, xəstəlik camaatı əldən salıb. Vəziyyət nəzarətdən çıxıb, paytaxt boşalmağa başlayıb, oğru-quldur küçələrdə at oynadır. Qarətçilər hətta müqəddəs heykəllərə, dini əşyalara da əl aparırlar. Epidemiyadan qırılanların cəsədinə yiyə duran yoxdur, o dünyanın qapısı sayılan məşhur Rasömon darvazası da baxımsız qalıb, darvazanın qülləsi meyitxanaya çevrilib. Leş yeyən quşlar, yırtıcılar bura dadanıblar.

Günün birində ağasının işdən qovduğu bir nökər yağışa-tufana düşdüyündən darvazanın tağı altında leysandan daldalanır. Onun getməyə yeri, yeməyə çörəyi yoxdur, ya acından ölməli, ya da oğurluğa qurşanmalıdır. Az sonra nökər darvazanın qülləsində işıq yandığını görüb pilləkənlə oraya qalxır, düşünür ki, gecəni orada keçirə bilər.

Qüllə cəsədlə doludur. Burada diri olan bəndə yalnız günü keçmiş bir qarıdır, o da bir qadın cəsədinin başındakı saçları çəkib toplamaqla məşğuldur. Nökər qəzəblə qarının üstünə atılıb ondan nə məqsədlə meyitdən tük çəkdiyini soruşur. Qarı qorxa-qorxa bu saçların ona parik düzəltmək üçün lazım olduğunu, yaşamaq üçün ayrı yolu qalmadığını bildirir. Qadın pis əməl törətdiyini düşünmür, axı bu saçlar o cəsədə daha lazım olmayacaq. Üstəlik, bu ölü qadın özü də sağlığında fırıldaqla məşğul olurmuş, ilan ətini zolaq-zolaq doğrayıb qurudub müştərilərə quru balıq adıyla satırmış. Ancaq qarı buna görə o, mərhumu da qınamır, axı onun da acından ölməmək üçün başqa çarəsi olmayıb.

Buna qədər tərəddüdlər əlində avara qalan nökər qarını dinləyəndən sonra qəti qərara gəlir ki, dolanışıq naminə oğurluq eləyə bilər. Siftəsini də elə oğru qadının üzərində sınaqdan keçirir, qarının kimonosunu əynindən çıxarıb qoltuğuna vurur, qüllədən aşağı enib qeybə çəkilir. O gündən sonra bir daha onu gördüm deyən olmur. Müəllif səbəbini yazmasa da, aydındır ki, nökər ya şəhərdən köçür, ya xəstələnib ölür, ya da haradasa qaranlıq iş başında ələ keçir.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# “Sülh zəngi”...



## Beynəlxalq Yer Kürəsi Günüdür

*Yeganə BAYRAMOVA*

Yarandığı zamandan bu günə qədər bəşəriyyət kifayət qədər böyük təkamül yolu keçib. Bir zamanlar baş verməsini xəyal etdiklərimiz artıq adi məişət və ya texniki əşyaya çevrilib. Məsələn, bir neçə əsr bundan öncə kəşf olunan kimyəvi elementlər belə günümüzdə böyük təkamül yolu keçərək elmdəki bəzi “sirli” qapıların açılmasına səbəb olub. Buna misal olaraq adicə dərman preparatlarını göstərə bilərik. Hansı ki, həmin dərmanlar yalnız mikroskop altında görülən mikrobları belə məhvetmə gücünə malikdir.

Ancaq etiraf edək ki, dünyada baş verən bütün dəyişikliklər insanların rahatlığı üçün yaradılsa da, zaman keçdikcə bəzi problemlərə də yol açıb. Kimyəvi tullantılar, texniki əşyalar, salınmış şəhərciklər, tikilmiş binalar, qazılmış neft buruqları və daha nələr-nələr... Bütün bunlar dünyanın nəfəs alan “ağciyərlərinin” məhvinə gətirib çıxarıb. Bu gün qlobal problemə çevrilən iqlim dəyişikliyi, qlobal istiləşmə, suyun tükənməsi və s. kimi ekoloji problemlər dünyadakı bu dəyişmələrin nəticəsidir. Yaşamaq üçün vacib olan dünyanın qorunması isə hər birimizin borcu və məsuliyyətidir. Məhz bu səbəbdən aprelin 22-si Beynəlxalq Yer Kürəsi Günü kimi qeyd edilir.

Yer Kürəsi Günü insanların Yer kürəsində ekoloji problemlərə diqqət etməsi üçün qeyd olunur. Bu səbəbdən də Yer Kürəsi günü, eyni zamanda, “Ağac Günü” kimi də tanınır. Yer Kürəsi gününün təsisçisi Geylord Nelsondur. Bu əlamətdar gün həm də yazın gəlişi, ətraf mühitin yaşıllaşması münasibəti ilə də qeyd edilir. Bir sözlə, 22 aprel həm sülhsevər və insani yönəlmə, həm də ekoloji xarakter daşıyan gündür.

**Tarixə nəzər...**

Yer Kürəsi Gününün tarixi XX əsrin 70-ci illərinə əsaslanır. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) 50-dən çox üzv dövlətinin müəllifliyi ilə 2009-cu ildə BMT-nin Ümumi Məclisinin 63-cü iclasına əsasən təsis olunub və 2010-cu ildən etibarən qeyd olunmağa başlanıb. İlk zamanlar Yer Kürəsi Günü bir çox ölkədə günlərin bərabərləşməsi, yazın (Şimal yarımkürəsində) və ya payızın (Cənub yarımkürəsində) başladığı zaman, qeyd olunurdu.

Formalaşmış ənənəyə görə, hər il Yer Kürəsi Günündə ölkələrin böyük əksəriyyətində dinc həyatın, bütün xalqların dostluğunun və həmrəyliyinin simvolu olan “Sülh Zəngi” birdəqiqəlik çalınır. Bu, mədəniyyəti və bəşəriyyətin ən yaxşı nailiyyətlərini qorumaq naminə fəaliyyətə çağırışdır. Həmin mərasimin mənası ondan ibarətdir ki, bu dəqiqə ərzində insanlar planeti necə qoruyub saxlamaq, ondakı həyatı necə yaxşılaşdırmaq, özlərini sakin və Yer kürəsinin bir hissəsi kimi hiss etmək barədə düşünürlər.

İlk “Sülh zəngi” 1954-cü ildə BMT-nin qərargahı Nyu-Yorkda quraşdırılmışdı. 1996-cı ildə belə bir sülh zəngi BMT-də, eləcə də Avstriyanın Vyana şəhərində quraşdırıldı. Daha sonra isə Yaponiyada, Almaniyanın böyük şəhərlərində (1989), Polşada, Türkiyədə (1989), Meksikada (1990), Avstraliya (1992), Monqolustan (1993), Filippin (1994), Kanada (1996), Braziliya (1997), Argentina (1998), Ekvador (1999), Özbəkistan (2003) və digər ölkələrdə quraşdırılıb.

Astronomlar müəyyən ediblər ki, bəşəriyyətin “evi” olan Yer kürəsi kainatın ucsuz-bucaqsız ənginliyinin bir zərrəsidir. İndiyədək kainatın heç bir yerində həyat aşkar olunmayıb. Ancaq Günəş sisteminin üçüncü planeti olan Yer kürəsində yaşayış üçün əlverişli şərait mövcuddur. Üstəlik, bu gözəl planetdə yaşamaq bizə sevinc gətirir, mövcudluğumuz üçün Yer kürəsi çox vacibdir. Ona görə bu planetimizi qorumaq hər birimizin üzərinə düşən mühüm vəzifələrdən biridir.

# Bank kartlarımızı dələduzlardan necə qoruyaq?

## Vətəndaşların diqqət etməli olduğu məqamlar...

Bank kartları ilə bağlı hər gün yeni bir dələduzluq növü eşidirik. Kartlardan istifadə və təhlükəsizliklə bağlı nə qədər məlumatlı olsaq da, hakerlər yenə xırda bir ehtiyatsızlıqdan sonra kartımızdakı pulları oğurlaya bilirlər. Son günlər isə vətəndaşların bank kartlarından pulların oğurlanması halları çoxalıb. Artıq hər gün bank kartlarından oğurlanan pullarla bağlı müxtəlif rəqəmlər deyilir.

Bu sahədə fəaliyyət göstərənlər zaman keçdikcə “texnoloji qabiliyyətləri”ni sürətlə inkişaf etdirirlər. Məsələn, bəzən olur ki, insanlar pul köçürmək lazım olduqda içində vəsait olmayan kartlarını göndərirlər. Düşünürlər ki, boş olan kartlarının göndərilməsi onlara heç bir problem yaratmaz. Lakin dələduzlar bu boş kart vasitəsilə insanların pul olan hesablarına çıxış imkanı əldə edirlər.

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyindən (DİN) vətəndaşlara müraciət edilərək bildirilib ki, kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan login və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır:

## Dələduzlar bankların mobil tətbiqlərini oğurlayırlar

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən İT mütəxəssisi Fərid Pərdəşünas bildirib ki, dələduzlar kartlara bankın mobil tətbiqi vasitəsilə daxil ola bilirlər: “Son vaxtlar dələduzlar bank kartlarını yox, bankların mobil tətbiqlərini oğurlayırlar. İnsanlara bununla bağlı təhlükəsizlik kodu göndərilir. Şəxsiyyət vəsiqəsinin FİN-i əldə olunaraq bank kartlarının hamısına birdən daxil olurlar. Bir kartı götürüb oradakı məlumatlarla bank tətbiqinə daxil olub digər kartlara keçid edirlər. Mobil tətbiqi oğurlayırlar deyə, həmin banka bağlı olan bütün kartları idarə edə bilirlər”.



## Müştəridən bu rahatlığı almaq olmaz

Bank məsələləri üzrə ekspert Emin Mahmudov isə bildirib ki, bank tətbiqi olmadıqda hesablara çıxış əldə etmək mümkün deyil:

“Proqram isə müştərinin rahatlığı üçündür. İndi 100 mində bir oğurluq olur deyə, müştəridən bu rahatlığı almaq olmaz. Kart biznesi hər zaman iki məsələ arasında qalır: təhlükəsizliyi də qorumalıdır, müştəriyə rahatlıq da verməlidir. Qeyd olunan situasiyalarda dələduzlar bir kartı alıb proqramda qeydiyyatdan keçir və kart sahibinin digər hesablarına da daxil olurlar”.

## Şəxsi kart kodlarınızı heç kimə verməyin

Ekspertin sözlərinə görə, vətəndaşlar heç bir halda şəxsi kodlarını üçüncü tərəflə paylaşmamalıdırlar:

“Ona görə də vətəndaşlar şəxsiyyət vəsiqələrinin FİN kodlarını, mesajla gələn təhlükəsizlik kodlarını heç kimə verməli deyillər. Çünki FİN kodla da bankın mobil tətbiqlərində qeydiyyatdan keçmək olur. Qeydiyyatdan keçəndə 3D kod göndərilir. O kodu da adətən vətəndaşlardan istəyirlər. Onları necəsə aldadıb ələ keçirirlər”.

## Bankdan gələn mesajda böyük hərflərlə yazılır ki...

Mütəxəssis bildirdi ki, heç bir bankda pul köçürməsi zamanı kartın üzərindəki 16 rəqəmdən başqa bir məlumat tələb olunmur:

“Kim deyirsə ki, istifadə müddəti, üç rəqəmli kod, telefona gələn təhlükəsizlik şifrəsini istəyir, bu, yalandır, istəyən şəxslər dələduzdur. Bankdan gələn mesajda böyük hərflərlə yazılır ki, kartınızdan pul silinəcək və ya bu proqrama giriş kodunuzdur, onu başqa şəxslərlə paylaşmayın. Amma insanlar o kodu yenə də kimlərəsə verir. Sonra bankı məhkəməyə verirlər ki, təhlükəsizlik sistemi kifayət qədər qurulmayıb, ona görə də məlumatlarım oğurlanıb”.

## Müştəri təhlükəsizlik - sms xidmətini aktiv etməlidir

E.Mahmudovun fikrincə, vətəndaşlar mütləq 3D təhlükəsizlik - sms xidmətini aktiv etməlidirlər:

“Bəzi banklarda bu xidmət pullu olduğu üçün insanlar xəsislik edib xidmətə qoşulmurlar. Halbuki bu xidməti aktiv etsələr, kartdan pul çıxılanda xəbər tutacaq, silinmələr olmamış kartı bloklaya biləcəklər.

*Yeganə BAYRAMOVA*

# Məktəbli qızlarımız ölkəmizi Avropa Qızlar İnformatika Olimpiadasında təmsil edəcəklər




***Azercell-in dəstəyi ilə EGOİ 2025-ə seçmə imtahanı keçirildi***

12-13 aprel tarixlərində Azərbaycan-Fransız Universitetində (UFAZ) informatika fənni üzrə qızlardan ibarət milli olimpiada komandasına seçmə imtahanı baş tutub.

Ötən il Avropa Qızlar İnformatika Olimpiadasında (EGOI) ölkəmizi təmsil etmiş iştirakçılarla yanaşı, bu il Respublika Fənn Olimpiadasının (RFO) yuxarı yaş qrupu üzrə final mərhələsinə vəsiqə qazanmış bütün qızlara da seçim imtahanına qatılmaq imkanı verildi. Eyni zamanda, aşağı yaş qrupu üzrə 100-dən artıq bal toplamış iştirakçılar da bilik və bacarıqlarını sınamaq fürsəti əldə etdilər. İki gün davam edən seçim mərhələsi zamanı iştirakçılar proqramlaşdırma və alqoritmlər sahəsindəki hazırlıq səviyyələrini nümayiş etdirdilər.

Seçmə imtahanının nəticəsinə əsasən Azərbaycan yığmasının üzvləri müəyyən edilib. Komandanın tərkibinə Bakı şəhəri, Fizika-Riyaziyyat və İnformatika Təmayüllü Liseyin 10-cu sinif şagirdləri Rahidil Bayramlı və Aytən İskəndərova, həmçinin Gəncə şəhəri, Fizika-Riyaziyyat və İnformatika Təmayüllü Liseyin 11-ci sinif şagirdləri Ayan Kərimova və Leyla Hacızadə daxil olublar. Qızlar ölkəmizi 14-20 iyul tarixlərində Almaniyanın Bonn şəhərində keçiriləcək EGOI 2025-də təmsil edəcəklər.

Xatırladaq ki, 2017-ci ildən etibarən ölkəmizdə İT/İKT mütəxəssislərinin yetişdirilməsinə və peşəkar inkişafına töhfə vermək məqsədilə məktəblilərimizin beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesi “Azercell Telekom” MMC, Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir. 2022-ci ildən etibarən qızlardan ibarət milli olimpiada komandası da şirkətin dəstəyilə xüsusi hazırlıq dərslərinə qatılır.

# Azercell və UiPath Azərbaycanda biznesin avtomatlaşdırılması və süni intellektin tətbiqi sahəsində əməkdaşlığa başlayır

***Lider mobil operator korporativ müştərilər üçün Robotik Avtomatlaşdırma Həlli (RPA) xidmətini təqdim edir***




Ölkənin lider mobil operatoru Azercell rəqəmsal transformasiya strategiyasının növbəti mərhələsində korporativ müştərilər üçün Robotik Avtomatlaşdırma Həlli (RPA) xidmətini istifadəyə verir. Yeni xidmət biznesin avtomatlaşdırılması və süni intellekt texnologiyaları sahəsində qlobal liderlərdən biri olan UiPath (NYSE: PATH) ilə qurulmuş strateji tərəfdaşlıq çərçivəsində təqdim olunur.

Bu əməkdaşlıq yerli müəssisələrə daxili prosesləri sadələşdirməyi, əməliyyatların səmərəliliyini artırmağı və ağıllı avtomatlaşdırma texnologiyaları vasitəsilə resurslardan daha effektiv istifadəni mümkün edir.

Azercell-in təqdim etdiyi RPA platforması orta və iri bizneslər üçün nəzərdə tutulub və gündəlik iş axınında əlavə vaxt, resurs tələb edən, təkrarlanan proseslərin avtomatlaşdırılmasına şərait yaradır. Bu texnologiya müəssisələrə əməliyyat dəqiqliyini artırmaq və məhsuldarlığı yüksəltməklə yanaşı, iş yükünün daha effektiv bölüşdürülməsinə imkan verir. Ətraflı məlumat üçün: https://www.azercell.com/az/corporate/iot/rpa.html

Tərəflər arasında əməkdaşlığın yeni perspektivləri və Azercell-in RPA sahəsindəki bir illik təcrübəsi “Azercell Telekom” MMC-nin prezidenti Zərinə Zeynalova və UiPath şirkətinin Türkiyə və Şərqi Avropa üzrə vitse-prezidenti cənab Tuğrul Cora arasında keçirilən görüşdə müzakirə olunub.

“Ölkənin rəqəmsal ekosisteminin aparıcı qüvvələrindən biri olaraq Azercell biznes tərəfdaşlarının avtomatlaşdırma texnologiyalarından faydalanmasına dəstək verməyə hazırdır,” - deyə Zərinə Zeynalova bildirib. “Artıq şirkət daxilində bir neçə istiqamətdə RPA həllərini tətbiq etmişik və bu texnologiyanın məhsuldarlıq, dəqiqlik və ümumi əməliyyat səmərəliliyinə əhəmiyyətli töhfələr verdiyini aydın şəkildə müşahidə edirik. Süni intellekt əsaslı innovativ platformamız korporativ müştərilərimizin gündəlik əməliyyatlarını sadələşdirməyə xidmət edir. Əsas məqsədimiz transformasiya dövründə müştərilərimiz üçün etibarlı biznes tərəfdaşı olmaqdır.”

Cənab Tuğrul Cora isə əməkdaşlıqla bağlı fikirlərini belə ifadə edib:

“Azercell ilə əməkdaşlığımız şirkətin daxili proseslərinin rəqəmsal transformasiyasına mühüm töhfə verib. Əldə olunan nəticələr məhsuldarlığın və əməliyyat səmərəliliyinin əhəmiyyətli dərəcədə artdığını göstərir. İnanırıq ki, süni intellekt və avtomatlaşdırma texnologiyalarının Azərbaycanda sürətli tətbiqi bizneslərin rəqabət qabiliyyətinin və ümumi məhsuldarlığın yüksəlməsinə ciddi təsir göstərəcək. Azercell ilə tərəfdaşlıq çərçivəsində yerli müəssisələrin rəqəmsal transformasiya yolunda uğur qazanmalarına dəstək verməyi hədəfləyirik.”

Görüş çərçivəsində tərəflər Azərbaycanda rəqəmsal innovasiyaların inkişafı istiqamətində gələcək strateji təşəbbüsləri də müzakirə ediblər.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4950
Sifariş: 842
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova